**MƏHSƏTİ GƏNCƏVİ**

# RÜBAİLƏR

"LİDER NƏŞRİYYAT"
BAKI–2004

*Bu kitab "**Məhsəti Gəncəvi.** Rübailər" (Bakı, 1970) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərcümə edənlər: **Nigar Rəfibəyli**
**Xəlil Yusifli**

Tərtib və ön sözün müəllifi: **Xəlil Yusifli**

**894.361'1 - dc 21**
**AZE**
**Məhsəti Gəncəvi. Rübailər.** "Lider nəşriyyat", Bakı, 2004, 144 səh.

Kitabda klassik Azərbaycan ədəbiyyatının qüdrətli nümayəndəsi Məhsəti Gəncəvinin müxtəlif mənbələrdən götürülmüş rübailəri toplanmışdır. Bu rübailər dövrünün humanist poeziyası – Xaqani, Nizami yaradıcılığı ilə yaxından bağlı olmaqla dünyəvi hisslər tərənnüm edir, insanı, onun gözəlliyini, arzu və istəklərini ifadə edir, onun həyat eşqinin, rəngarəng duyğularının poetik ifadəsi kimi özünü göstərir.

**ISBN 9952-417-09-6**

© "LİDER NƏŞRİYYAT", 2004.

Azərbaycan Respublikasının
Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# RƏVAYƏTLƏR DUMANI ARXASINDAN BOYLANAN SƏNƏTKAR

Məhsəti Gəncəvi orta əsrlər Azərbaycan şeirinin qüdrətli nümayəndələrindən biridir. Onun yaşayıb-yaratdığı zamandan 850 ilə yaxın bir dövr keçməsinə baxmayaraq, əsərləri indi də sevilə-sevilə oxunur, oxucularına zövq verir, onlarda həyata, insana məhəbbət oyadır, onları nikbinliyə, dünyanın gözəlliklərindən ilham almağa çağırır, zahidlikdən, tərki-dünyalıqdan, vaxtı keçmiş adət-ənənələrdən uzaqlaşdırır. Məhsəti Azərbaycan və Şərq ədəbiyyatının dövründə yaşamışdır. Həmin dövrdə Nizami, Xaqani kimi dahi sənətkarlar yetişmiş, Əbül-Üla, Fələki, Mücirəddin kimi şairlər yazıb-yaratmışlar. Bu dövrdə dahi Nizami tərəfindən nəinki təkcə Azərbaycan, bəlkə bütün Yaxın və Orta Şərq intibahının ən parlaq ədəbi nümunələri yaradılmışdır.

Orta əsrlər şəraitində, qadının hüquqlarının məhdudlaşdırıldığı bir dövrdə Məhsəti Gəncəvi kimi istedadlı şairənin yetişməsi xüsusi əhəmiyyət kəsb edir, ümumi mədəni səviyyənin, baxışlarda yaranan yeniliyin, azadfikirliliyin əlamətlərindən biri kimi meydana çıxır. Məhsəti kimi bir qadın sənətkar birdən-birə yetişə bilməzdi. Bunun üçün müəyyən zəmin olmalı idi. Məhsətinin əldə olan şeirləri göstərir ki, o, yaxşı təhsil almış, ərəb və fars dillərini öyrənmiş, Şərq poetikasının incəliklərini mükəmməl bilmişdir. Onun əsərlərində işlənilən bədii vasitələr aydın şəkildə göstərir ki, Məhsəti yüksək istedad və incə zövqlə yanaşı, dərin mütaliəyə malik olmuşdur. Düzdür, Məhsətinin həyatı, şəxsiyyəti, təhsili haqqında mənbələrdə də-

qiq, ətraflı məlumat yoxdur. Şairə haqqında ancaq əsərlərindən əldə olan nümunələrə əsaslanıb müəyyən fikirlər irəli sürmək olur. Bu ondan irəli gəlir ki, orta əsrlər şəraitində qadının şeir yazmağını qəbahət saymış, onun haqqında danışmağı məqbul hesab etmişlər. Əksinə, şairənin yüngül əxlaqlı olması haqqında müxtəlif rəvayətlər uydurmuşlar. Bu rəvayətlərin böyük bir qismi "Əmir Əhməd və Məhsəti" adlı dastan-rəvayətdə toplanmışdır.

Təxminən XIV əsrdə yarandığı ehtimal edilən bu kitabın özündə də Məhsətiyə rəğbət hissi duyulur, onun yüksək istedadı, mərdliyi, xoş təbiəti göstərilir. Məhsəti Gəncəvi yaradıcılığına rəvayətlərə əsasən yanaşmaq, əlbəttə, böyük səhv olardı.

Məhsəti Gəncəvinin haqqında məlumat olduqca azdır. Hətta onun adını dəqiq bilmirik. Bəzən Munisə, bəzən də Mənicə deyə xatırlanan Məhsətinin əsl adı əsrlərin dumanları arasında itib getmişdir. Bu adlara ancaq son dövr mənbələrində rast gəlirik. Onların nə dərəcədə həqiqət olduğunu demək çətindir. Xaqani, Nizami, Xətai sözləri həmin şairlərin təxəllüsü olduğu kimi, Məhsəti sözü də bizim şairənin təxəllüsüdür. Əsrlər keçməsinə baxmayaraq, hər şey unudulmuşdur, lakin dərin insani duyğuların tərcümanı olan şeirlərin müəllifinin təxəllüsü qalmışdır. Adı, həyatı, əlaqələri, səfərləri unudulmuş, lakin imzası, təxəllüsü yaddan çıxmamışdır. Məhsətinin həm də şairənin adı olması ehtimalı az inandırıcı görünür.

Məhsəti sözünün mənası ətrafında da mənbələrdə xeyli mübahisə vardır. Məlumdur ki, Məhsəti sözü ərəb əlifbası ilə yazılarkən saitlər yazılmır və sözün yalnız mim, ha, sin, tə və yə qrafik işarələri yazılır. Buna görə bəzən onu

Məhsəti, bəzən də Məhəsti şəklində oxuyurlar. Məhsəti şəklində oxunan həmin sözü iki şəkildə başa düşmək olur. Siti – burada xanım mənasında işlədilmişdir. Məh sözü isə ay deməkdir. Meh (yaxud mih) şəklində oxunduqda isə böyük mənasında başa düşülur. Məhsəti təxəllüsü buna əsasən Böyükxanım və Ayxanım mənalarında başa düşülə bilər. Bu təxəllüsün Böyükxanım mənasında işləndiyi daha ağlabatandır. Tədqiqatçıların və təzkirə müəlliflərinin çoxu onu bu şəkildə izah edirlər. Bir rəvayətə görə, Məhsəti özünü Sultan Səncərin qarşısında kiçik (keh) nökərlərdən biri adlandırır. Farsca kiçik mənasında işlənən "keh" sözünün qarşılığı "meh"dir. Sultan Səncər onu "keh" (kiçik) yox, "meh" (böyük) adlandırır. "Meh həsti", yəni "böyüksən" deyir. Guya həmin vaxtdan şairənin təxəllüsü Məhsəti qalır. Başqa bir rəvayətə görə, Məhsəti anadan olanda atası uşağın gözəlliyini görüb heyran qalır və deyir: "Məh-əsti, yəni aydır". Yaxud "Məh-həsti, yəni aysan". Gördüyümuz kimi, şairədən yadigar qalan Məhsəti təxəllüsünün özünün izahında da fikirlər müxtəlifdir. Lakin bu təxəllüsün Böyükxanım mənasında şairə tərəfindən sonra götürüldüyü, yaxud kim tərəfindənsə verildiyi ehtimalı daha ağlabatandır. Lakin Ayxanım mənasını da qəti rədd etmək üçün kifayət qədər dəlil yoxdur.

Məhsəti sözünü daha çox "Ayxanım" mənasında izah edən Səid Nəfisi yazır: "Məhsəti "mah" sözunün xəfif forması olan "məh"lə xanım mənasında işlənən "siti" sözünün birləşməsindən düzəlmiş addır"[1]. O, "Bürhane-qate"yə

---

[1] *Səid Nəfisi.* Həkim Nizami Gəncəvi. "Ərməğan", Sale Pəncom, şomareye dovvom, səh. 281.

əsaslanaraq siti sözünün hind dilində ən hörmətli qadın mənasında işləndiyini də yazır[1]. Rəşid Yasəminin "Məhsəti Gəncəvi" məqaləsində isə oxuyuruq:

"Məhsəti iki sözdən düzəlmişdir: "Məh" – böyük və "siti" – xanım. Və bu elə bir addır ki, o dövrdə çox işlənmişdir"[2].

Məhsəti sözünün mənası ilə bağlı buna bənzər qeyd və izahlar çoxdur, lakin biz bu iki qeydi nümunə gətirməklə kifayətlənirik.

Məhsəti bəzən Dəbir deyə xatırlanır. XII-XIII əsrlərdə yaşamış görkəmli İran şairi Fəridəddin Əttar "İlahinamə" poemasında Məhsətiyə həsr etdiyi hekayəni belə başlayır:

O təmiz gövhərli Məhəsti Dəbir
Olmuşdu Səncərlə dil bir, könül bir.
Camalı deyildi ay kimi parlaq,
Qəlbən bağlanmışdı şah ona ancaq...

Məhsəti dövrünə yaxın olan, ola bilsin ki, onu şəxsən görən Əttar Məhsətini təmiz gövhərli Dəbir adlandırır. Zahirən üzü ay kimi gözəl olmasa da, Səncərin onu sevdiyini yazır. Dəbir katib, yazan, yazı işlərini aparan deməkdir. Məlumdur ki, dəbir yüksək savada, gözəl xəttə malik olmalı, hazırcavablığı, incə zövqü, diplomatik keyfiyyətləri ilə seçilməli idi. Şairənin bədahətən şeirlər deyə bilməsi də bu işdə köməyinə gəlirmiş. Bizə görə, Məhsətinin Dəbir deyə xatırlanması onun yüksək savada malik bir

---

[1] *Səid Nəfisi.* Göstərilən əsəri.

[2] *Rəşid Yasəmi.* Məhsəti Gəncəvi, "Ayənde", 1927, №2, səh.141.

ziyalı olduğunu, Sultan Səncər sarayında aparılan yazışmalarda yaxından iştirak etdiyini göstərir. Maraqlı burasıdır ki, Əttar Məhsətinin təxəllüsünü Məhəsti kimi verir. Bu şəkildə təxəllüs “aysan”, yaxud “böyüksən” mənasındadır. Məhsəti adı ilə bağlı bir hekayə də Sənainin “Hədiqətül-həqaiq” əsərindədir. Lakin bu hekayə şairə Məhsəti Gəncəvi haqqında deyil, Məhsəti adı daşıyan və Məhsətidən xeyli əvvəl yaşamış bir şəxs barəsindədir.

Sənai yazır ki, o, həmin hekayəni atalardan, dünya görmüş hünərli qocalardan eşitmişdir. Məhsəti Gəncəvi haqqında o, belə hekayə danışa bilməz və atalardan da bir şey eşidə bilməzdi. Hekayədə göstərilir ki, guya Təkav kəndində bir qadın olur. Onun Məhsəti adlı qızı, üç də inəyi varmış. Bir gün Məhsəti xəstələnir. Qadın Allaha yalvarır ki, Məhsətini yox, onu xəstələndirib öldürsün. Bu vaxt qapı açılır. Heybətli bir şey içəri daxil olur. Qarı elə bilir ki, Allah onun xahişinə görə Əzrayılı göndərmişdir. Qarı qorxur, Əzrayıla yalvarır ki, ey Əzrayıl, mən Məhsəti deyiləm, xəstələnən odur, alırsan, get onun canını al. Mən kimsəsiz və zəif bir qarıyam. Əslində qapıdan girən inəklərdən biri imiş. İnək mətbəxə girib qabdakı unu yemiş, sonra qab buynuzunda yataq otağına gəlibmiş. Bu yumoristik hekayə saxta məhəbbətə gülmək üçün yazılmışdır. Onun Məhsəti Gəncəvi ilə heç bir əlaqəsi yoxdur. Görünür ki, Məhsəti Gəncəvidən başqa bir Məhsəti də olmuşdur.

Bu iki Məhsətinin olması hamını çaşdırmış, ziddiyyətli fikirlərin yaranmasına səbəb olmuşdur. “Əmir Əhməd və Məhsəti” dastanında Məhsətinin Xocəndlə əlaqələndirilməsi də elə bununla bağlı olmalıdır. İki Məhsətinin oldu-

ğunu bilməyən dastan müəllifi onların haqqındakı rəvayətləri birləşdirmiş, həm xocəndli, həm də gəncəli olan şairə Məhsəti surətini yaratmışdır. Məhz bunun nəticəsində 20 yaşlı Məhsəti anası ilə birlikdə Xocənddən Gəncəyə gətirilmiş, Xarabat məhəlləsində ona yer verilmişdir. Sonra isə Gəncədən Bəlxə sürgün olunmuşdur. Burada da çoxlu səhvlərə yol verilmişdir. Halbuki bütün mənbələr onu gəncəli kimi təqdim edir. "Əmir Əhməd və Məhsəti" dastanında, əslində, yeni – üçüncü bir Məhsəti yaradılmışdır.

Əsl Məhsəti Gəncəvi haqqında ilk qeydə Nizaminin "Xosrov və Şirin" poemasında rast gəlirik. Özü ilə müqayisədə Nizami Məhsətiyə o qədər də böyük əhəmiyyət vermir, bir gecədə bir qəzəl üçün bir xəzinə alan Məhsətidən özünün çox üstün olduğunu xatırladır və şikayətlənir. Bir qədər sonra isə 1233-cü ildə Şəms Qeys Razi onun şeirlərindən nümunə gətirir, Sənaiyə nəzirə yazdığını söyləyir. XIII əsrdə Cəmaləddin Xəlil Şirvani onun divanını görür və 75 rübaisini öz bayazına köçürür. XIV əsr Azərbaycan alimi Həmdullah Qəzvini ondan Əmir Əhmədin arvadı, həm də Sultan Mahmud Qəznəvinin müasiri kimi danışır. Başqa sözlə, onun X əsrin sonu, XI əsrin əvvəllərində yaşadığını söyləyir. Qiyasəddin Xondəmir isə özünün "Həbibüs-siyər" adlı böyük tarixi əsərində bizə məlum olmayan "Tarixi-Cəlali" adlı çox mötəbər bir mənbəyə əsaslanaraq Həmdullah Qəzvininin bu səhvini düzəldir. Şairənin əri Əmir Əhmədlə birlikdə XI əsrin sonu – XII əsrin birinci yarısında yaşadığı fikrini irəli surüb, Sultan Mahmud Səlcuqi və Sultan Səncər saraylarında yaşadığını yazır.

XV əsr təzkirəçisi Dövlətşah Səmərqəndi də Məhsətini Sultan Səncər dövrünün ən yaxşı şairlərindən biri kimi xatırlayır. Onun adını Ədib Sabir, Rəşid Vətvat, Əbdülvase Cəbəli, Nəvid Katib, Ənvəri, Məlik Əmari, Suzəni, Seyyid Həsən Qəznəvi kimi şairlərlə bir sırada çəkir. Məhsətinin əldə olan əsərləri arasında Ədib Sabirə müraciətlə yazılmış bir qitə-məktub vardır. Buradan aydınlaşır ki, Sabir Məhsətiyə məktub yazıbmış. Məktub Məhsətini çox sevindirir. Şair dostuna Məhsəti şeirlə cavab yazır:

Sabir, o naməni aldım, oxudum,
Ruhuma sanki qanad bəxş elədi.
O ədəb kanı olan misraların
Könlümə nurlu həyat bəxş elədi.
İşvəli, duzlu sözün Məhsətinin
Quru cisminə səbat bəxş elədi.
Ürəyim söhbətinin eşqi ilə
Səbrini qeyrə rahat bəxş elədi*.

Bu şeir Məhsətinin XII əsrdə Sultan Səncər sarayında yaşaması fikrini bir daha təsdiq edir.

Sonrakı təzkirə və tarix müəllifləri də Məhsətidən gəncəli şairi kimi bəhs etmiş, əsərlərindən nümunələr vermişlər. Məhsəti haqqındakı məlumatlar göstərir ki, o, XII əsr Azərbaycan şeirinin istedadlı nümayəndələrindən biri olmuşdur. Məhsətinin ədəbi irsi zamanın keşməkeşləri nəticəsində pərakəndə düşmüş, bütöv bir məcmuə, ya divan şəklində gəlib bizə çatmamışdır. Lakin xoşbəxtlikdən bu gözəl qadın şairin irsi tamam itib batmamışdır. Şeir və

---

* Ön sözdə gedən şeirlərin tərcüməsi bizimdir – ***X.Y.***

sənət həvəskarları onun da şeirlərini əzbərləmiş, haqqında rəvayətlər düzəltmiş, şeirlərindən əldə edə bildiklərini dəftərlərinə köçürmüşlər. Onların bəziləri bu şeirləri ağız-dan-ağıza eşitdiyi üçün əsərləri qarışıq salmış, Məhsətinin şeirlərini başqa şairin, başqa şairin rübailərini isə Məhsəti-nin adına yazmışlar. Şərqdə rübailərin müxtəlif müəllif-lərə aid edilməsi geniş yayılmış bir hadisədir. Məşhur Ömər Xəyyamın adına minə qədər rübai yazılmışdır. Halbuki bunun ondabiri belə, Xəyyamın deyildir. "Əmir Əhməd və Məhsəti" dastanında Məhsətiyə aid edilən şeirlərin də çoxu Məhsətinin deyildir. Məhsətinin olduğu şübhə doğurmayan şeirlər də çoxdur. Lakin bu şeirlər nis-bətən qədim dövrlərdə tərtib olunmuş, köçürülmüş əlyaz-malarındadır. Belə əlyazmaları çox deyildir. Onlardan biri Şəmsəddin Məhəmməd ben Qeys Razinin "Əl-mocəm fi məaire-əşarül-əcəm" adlı poetika kitabıdır. Bu kitabda təzaddan danışılarkən Məhsətinin bir rübaisi nümunə gəti-rilmişdir. Əsər 1233-cü ildə yazılmışdır. Həm də müəllif yazır ki, Məhsəti həmin rübaini ("Xasiyyətdə qışsan, üzdə ilk bahar") Sənai Qəznəviyə təqlidən yazmışdır. Sənainin Xaqani, Nizami kimi Azərbaycan şairləri tərəfindən sevil-diyini nəzərə alsaq, Məhsətinin də ondan təsirlənərək rübai yazmasını təbii hesab etməliyik. Öz növbəsində Sənai Qəznəvi Məhsətinin əri kimi qeyd olunan Gəncə Xəti-binin oğlu Əmir Əhmədin bir şeirinə cavab yazmışdır. Sənai "Ku" ("Hanı") rədifli qəzəlində yazır:

Həm bədin vəzn, ey pesər, Pure-Xətibe-Gənce qoft:
"Noubahar aməd, neqara, badeye-qolnar ku?"
Ey oğul, bu vəzndə Gəncə Xətibinin oğlu demişdir:
"Novbahar gəldi, ey nigar, gül rəngli şərab hanı?"

Gəncə ədəbi mühiti ilə Sənainin bu əlaqəsi Şəms Qeys Razinin Məhsətini Sənai ilə əlaqələndirməsinə müəyyən haqq qazandırmaqla bərabər şeirin Məhsətiyə aid olması faktını da təsdiq edir.

Məhsəti irsinin ikinci ən qədim və mühüm mənbəyi XIII əsrdə Azərbaycan şairi Cəmaləddin Xəlil Şirvani tərəfindən tərtib olunmuş "Nüzhətül-məcalis" adlı məqalələr məcmuəsidir. Əsasən Azərbaycan şairlərinin əsərlərindən tərtib olunmuş bu məcmuədə Məhsəti rübailərinə daha geniş yer verilmişdir. Burada Rəziyyə Gəncəvi adlı son dövrlərə qədər naməlum olan və XIII əsrə qədərki dövrdə yaşamış digər bir Azərbaycan şairinin 9, Ömər Xəyyamın 33, Nizaminin 10, Məhsətinin isə 75 rübaisi qeyd edilmişdir. "Nüzhətül-məcalis"də Məhsəti rübailərinə belə geniş yer verilməsi, onun əsərlərindən Nizamiyə nisbətən yeddi dəfədən çox, Ömər Xəyyama nisbətən isə iki dəfədən çox nümunə qeyd olunması istər-istəməz bizi belə bir nəticə çıxarmağa vadar edir ki, Məhsəti öz dövründə, eləcə də sonrakı əsrlərdə müəyyən cəhətlərə görə ən qüdrətli rübai ustadı kimi tanınmış imiş. Şairə haqqında yaranmış müxtəlif rəvayətlər də müəyyən qədər bu fikri təsdiq etməkdədir. Burada Məhsəti adına yazılan şeirlərin əsl Məhsəti əsərləri olduğunu isbat etməyə ehtiyac yoxdur. Doğru olaraq Frist Meyer də bu şeirləri Məhsətiyə məxsus olan rübailər kimi qiymətləndirir.

Burada qeyd olunmuş rübailərin Məhsətiyə aid olduğunun şübhə doğurmaması və onların sayca kifayət qədər çox olması onları Məhsəti yaradıcılığı üçün əsas ölçü götürməyə imkan verir. Məsələn, "Nüzhətül-məcalis"dəki Məhsəti rübailəri arasında "xəyyamanə", eləcə də mey-

dən, saqidən, xarabatdan bəhs edən, bəzən də sufizm ətrli rindanə şeirlərin olmaması göstərir ki, son dövr mənbələrinə, o cümlədən "Əmir Əhməd və Məhsəti" dastanına istinad edərək bu qəbildən olan şeirləri Məhsətinin hesab etmək səhvdir.

Abdullah Cövhəri Təbrizinin 1287-ci ildə tərtib etdiyi məcmuədə də Məhsəti şeirlərindən nümunələr vardır. "Şərhi qəsideye-houliyə" adlanan həmin məcmuədə Məhsətinin üç rübaisi verilmişdir. Bu rübailərdən biri məzmun cəhətdən nöqsanlı olduğundan onu, Məhsətinin hesab etmirik, onun olsa belə, çap edilməsini lazım bilmirik. Beləliklə, Abdullah Cövhəri Təbrizinin məcmuəsindən iki rübai əldə edilir.

Müzəffər İsfahani tərəfindən 1225-ci ilin avqustunda tərtib olunmuş məcmuədə Məhsətinin ancaq bir rübaisi qeyd olunmuşdur.

Həmdullah Qəzvininin "Tarixi-qozide" (1330) əsərində də Məhsətinin ancaq bir rübaisi qeyd olunmuşdur. Lakin "Tarixi-qozide"də bundan əlavə Məhsəti haqqında bir rəvayət və həmin rəvayətin içində daha bir rübai vardır ki, həmin rübaini də məzmunca nöqsanlı olduğu üçün bu kitaba daxil etmirik.

Məhsəti Gəncəvinin rübailərindən nümunələr qeyd olunmuş mötəbər mənbələrdən biri də Bədrəddin Cacərminin 1342-ci ildə tamamladığı "Munisül-əhrar fi dəqaiqül-əşar" adlı rübai toplusudur. Həmin məcmuənin avtoqrafında bilavasitə şairənin adına 34 rübai yazılmışdır ki, onlardan biri eynilə "Tarixi-qozide"də vardır. Bundan əlavə, "Munisül-əhrar"da məzmun və forma cəhətdən Məhsəti rübailərini xatırladan bir sıra şeirlər vardır ki, on-

ların kimə məxsus olduğu avtoqrafda göstərilməmişdir. Həmin rübailərdən bəziləri "Munisül-əhrar"ın 1838 və 1839-cu illərdə köçürülmüş nüsxələrində, eləcə də bir sıra başqa mənbələrdə Məhsəti adına yazılır. Bu cür rübailərdən bəzilərini də Məhsəti rübailərinin naşirləri onun adına yazırlar. Məsələn, elə F.Meyer özü "Munisül-əhrar"da müəllifsiz qeyd olunmuş və sonrakı mənbələrin heç birində Məhsətinin olduğu göstərilməyən rübailərdən yeddisini məzmun və üslub xüsusiyyətlərinə görə Məhsəti əsərlərinin sırasına daxil edir. "Munisül-əhrar"da müəllifsiz qeyd olunan, lakin sonrakı mənbələr və ya naşirlər tərəfindən Məhsəti adına yazılan rübailərin də sayı 34-dür. Lakin biz bu rübailərin hamısını Məhsəti adına çap etməyi doğru hesab etmirik. Bu şeirlərdən ancaq sonrakı mötəbər mənbələr tərəfindən Məhsəti adına yazılanlarını onun əsərləri kimi çap etməyi düzgün sayırıq.

Bədrəddin Cacərmi bayazının avtoqrafında Məhsəti adına qeyd olunan rübailərdən də biri məzmunca nöqsanlıdır. Demək, bu məcmuə əvvəlki mənbələrə ancaq 32 rübai əlavə edir.

Məhsətinin rübailərindən 1387-ci ildə tərtib olunmuş "Məcməül-bühur və səkinətül-cümhur" (İstanbul universiteti kitabxanasının əlyazmaları, № 417) adlı topluda ancaq bir nümunə verilmişdir. Fu-587 nömrəli şifr altında İstanbul Universiteti kitabxanasında saxlanılan və H.Ritterin müəyyən etdiyi kimi XIV əsrdə tərtib olunan bayazda Məhsəti adına 5 rübai, başqa bir rübaidən ayrıca iki misra və rəməl bəhrində dörd misralıq bir müəmma qeyd edilmişdir. Həmin rübailərdən biri eynilə "Nüzhətül-məcalis"də, biri isə "Munisül-əhrar fi dəqaiqül əşar"da da var-

dır. Demək, bu bayaz Məhsəti irsinə ancaq 5 parça şeir əlavə edir.

Təxminən XIV əsrin ortalarında tərtib edilən və Tehran Milli Məclis Kitabxanasında saxlanılan 900 nömrəli şeir toplusunda Məhsətinin 13 rübaisi saxlanılır. Bunlardan biri eynilə Abdullah Cövhəri Təbrizidə də vardır. Qalan 12 rübaidən birini "Nüzhətül-məcalis" başqa müəllifin adına yazır. Beləliklə, bu toplu əvvəlki şeirlərə 11 rübai əlavə etmiş olur.

Məhsəti irsi ilə bağlı qiymətli şeir toplularından biri də A-27261 nömrəli şifr altında Britaniya muzeyində saxlanılan "Cüngi-İskəndəri" adlı məcmuədir.

1410-cu il sentyabr – 1411-ci il oktyabr tarixləri arasında tərtib olunmuş bu topluda Məhsəti adına 26 rübai yazılmışdır ki, 16-sı əvvəlki mənbələrdə də vardır. Demək "Cüngi-İskəndəri" əvvəlki mənbələrə daha 10 rübai əlavə edir.

F-1203 nömrəli şifr altında İstanbul universiteti kitabxanasında saxlanılan XV əsrə aid rübailər toplusunda da Məhsəti irsindən xeyli nümunə qeyd olunmuşdur. Maraqlıdır ki, burada verilən 50 rübaidən 37-si eynilə "Nüzhətül-məcalis"də də vardır. Yerdə qalan 13 rübai isə yenidir.

Dövlətşah Səmərqəndinin 1487-ci ildə tamamlanmış "Təzkirətüş-şüəra" əsərində Məhsətinin ancaq bir mədhiyyə-rübaisi qeyd olunmuşdur ki, onu da inamla Məhsəti əsərlərinin siyahısına daxil etmək olar.

Müsafir ben Nasirinin 1349-cu və ya 1446-cı ildə tərtib olunmuş "Ənisül-həlva və cəlisül-səlva" adlı şeir məcmuəsində Məhsətinin bir rübaisi qeyd edilmişdir. Bu, Cacərmi məcmuəsində müəllifsiz qeyd edilən rübailərdən-

dir. Bu mənbələr Məhsəti rübailərinin ən mötəbər mənbələridir. Həmin mənbələrdə qeyd olunmuş şeirlər Məhsəti ədəbi irsinin əsas xüsusiyyətləri haqqında oxucuda kifayət qədər düzgün təsəvvür oyadır və son dövr mənbələrində Məhsəti adına yazılan şeirlərin ona aid olmasının mümkün olub-olmadığını söyləmək üçün əsas meyar, məhək daşı rolunu oynaya bilər. Məhz bu 153 rübai əsasında biz XIV-XV əsrlərdə tərtib olunmuş digər mənbələrdə Məhsəti adına yazılan şeirləri saf-çürük edərək onlardan Məhsəti irsinin xüsusiyyətlərinə uyğun gələnləri seçib həmin irsə əlavə edə bilərik.

Məhsətinin bizə qədər gəlib çatan rübai, qəzəl və qitələrinin nəzərdən keçirilməsi göstərir ki, Məhsəti dövrünün humanist poeziyası ilə yaxından bağlı olmuş, dini ideologiyanın hakim olduğu bir şəraitdə dünyəvi hisslər tərənnüm edən əsərlər yaratmış, insanı, onun gözəlliyini, arzu və istəklərini ifadə etmiş, onun həyat eşqinə, rəngarəng duyğularına bəraət qazandırmışdır. Şairin əsərlərinin üstün cəhəti odur ki, onlarda insan məhəbbəti əsas yer tutur. Onu sevgilisinin qaş-gözü, saçları, boy-buxunu, hərəkətləri daha çox cəlb edir. O, sevən qəlbin sevincini, kədərini rəngarəng boyalarla qələmə alır. Şair klassik Şərq poetikasının bədiilik üsullarından məharətlə istifadə edir. Ənənəvi üsul, obraz və təşbehlərlə səmimi insan duyğularının inikasına nail olur. Çox vaxt müəyyən bir fikir və ya hissi ifadə etməklə bərabər, gözəl bədii lövhələr yaradır. Məhsəti böyük heyranlıqla insan gözəlliyini, daha çox bu gözəlliyin təsirindən doğan hisləri əks etdirir:

Ba laleroxane-bağ sərv əz səre-naz,
Mikərd ze şərhe-qədde-xod qesse deraz,

Əz bade-səba ço vəsfe-qəddət beşenid,
Zavazeye-qaməte-to aməd benəmaz[1].

Sərv nazlanaraq bağın laləüzlülərilə
Öz boy-buxunu haqqında uzun-uzadı söhbət edirdi.
Səba yelindən sənin boyunun tərifini eşidən kimi
Qamətinin sorağı qarşısında səcdəyə gəldi.

Bu şeirdəki obrazlar, bənzətmələr yeni deyildir. Lakin şair onları elə zövqlə, elə məharətlə işləmişdir ki, gözəl poetik bir lövhə yaranmışdır. Sevgili bir tərəfdə sərvlə, o biri tərəfdə başqa güllər-çiçəklərlə müqayisə edilmişdir. Sevgili birbaşa sərvlə müqayisə edilmir. Sərvin qısa həyat tarixçəsi danışılır. Bağda olan bütün laləüzlülərin, güllərin, yaraşıqlı ağacların yanında nazlanıb özünü öyən, düz, yaraşıqlı qaməti ilə fəxr edən sərv səhər yelindən məşuqənin qamətinin tərifini eşidir. Onun özünü görməmiş qamətinin sorağı qarşısında səcdəyə durur. Düz, uca, yaraşıqlı qamət mücəssəməsi olan sərv insan gözəlliyi qarşısında baş əyir. Şairə gözəlin konkret təsvirini vermir. Lakin biz gözəlliyinin sorağı ilə sərv ağacını səcdəyə gətirən sevgilinin gözəlliyinə inanırıq. Orta əsrlər şəraitində insan gözəlliyi haqqında oxunan bu himn, bu poetik insan heykəli Məhsəti yaradıcılığı üçün də, bütün XI-XII əsrlər Azərbaycan ədəbiyyatı üçün də göydəndüşmə hadisə deyildi.

Bu, dövrün qabaqcıl adamlarının şüurunda əmələ gələn böyük bir dönüşün, dəyişmənin nəticəsi idi. Bu, "Töhfətül-İraqeyn", "Xosrov və Şirin", "Leyli və Məcnun" kimi insan şəxsiyyətini son dərəcə yüksəldən bədii əsərlərin

---

[1] *Frist Meyer*. Gözəl Məhsəti. Visbaden, 1963, səh. 255.

yarandığı bir dövrün insana münasibətinin ifadə formalarından biri idi. İnsana, onun nəcib duyğularına olan bu dərin məhəbbət şairin müxtəlif şeirlərində yeni-yeni şəkillərdə əks etdirilmişdir.

Yolda tutdum onu and-amanla mən,
Tərlədi gül üzü həya-şərmdən.
Solğun bənizimə güldü lütf edib,
Əks oldu bənizim dişində, əhsən[1].

Naz edir üzünə zülfün o qədər,
Qorxuram qısqanıb mən olam kafər.
O yelə qul ollam, ey Təraz şamı,
Götürə zülfünü üzdən bir təhər[2].

Bu şeirlərdə insana, onun duyğularına dərin məhəbbət ifadə edilmişdir. Onlardakı səmimilik, təbiilik, canlılıq və obrazlılıq Məhsətini dövrünün ən mütərəqqi görüşlü yazıçılarından biri kimi qiymətləndirməyə haqq qazandırır. Məhsətinin şeirlərində insan gözəlliyinin, hisslərinin belə geniş təsvir edilməsi təsadüfi hal olmayıb şairənin həyata bağlılığını, humanizmini göstərən cəhətlərdir.

Məhsətinin bir qism rübailərində aşiqin vüsal dəmlərində keçirdiyi sevinc hissləri əks olunur. Bu tipli şeirlərində də fikirlərini kiçik lövhələr cızmaqla ifadə etməyə çalışan şair oynaqlığa, şuxluğa xüsusi diqqət yetirir, aşiqlə məşuqənin görüşündən kiçik epizodlar verir, canlı mənzərələr yaradır.

---

[1] *Frits Meyer*. Gözəl Məhsəti. Visbaden, 1963, səh. 257.
[2] Yenə orada, səh. 257.

Dünən tutdu məni o sərxoş nigar,
Dedi: "Qurtarmazsan əlimdən, ey yar".
Dedim ki, gecədir, əlimi burax,
Yar, bizi əl-ələ bir görən olar[1].

Yaxud:

Saçımı zülfünə bağlayam gərək,
Durub qaçmayasan ta dünənki tək.
Deyəm, məst olmamış könlümdə nə var,
Bir də deməyəsən, məst oldu gerçək[2].

Səmimi duyğuların, canlı, real insan münasibətlərinin ifadəsi olan bu rübailərdə gülümsəyən həyat indi də bizə doğma və tanışdır. İnsanı, onun istəklərini poeziyasının məhvərinə çevirən şairin rübailəri sözün həqiqi mənasında həyatın, məhəbbətin poetik təsdiqidir.

Bir gecə əlimə keçdi o canan,
Yüz-yüz öpüş aldım bal dodağından.
O söymək istədi məni, amma mən
Söyuşü öpüşlə sındırdım yaman[3].

"Müsəlman intibahı"nın bir çox nümayəndələri ilə yanaşı, Məhsəti də insanı, onun duyğularını müdafiə edir, səmimi, təmiz insan münasibətlərini quru ehkamlara, tərkidünyalığa, riyakarlığa qarşı qoyub məhəbbət nəğmələri yaradır. Bu şeirlərə yüngül şəhvani hisslər təbliğ edən əsərlər kimi baxmaq böyük səhv olardı. Bu, hər şeydən əvvəl insanın mənəvi azadlığını müdafiə etmək, ehkamların zülmət pərdəsinə bürünmüş insani duyğuları əsarətdən

---

[1] *Frits Meyer*. Gözəl Məhsəti. Visbaden, 1963, səh.165 .
[2] Yenə orada, səh. 154.
[3] Yenə orada, səh. 259.

qurtarmaq cəhdi idi. Ehkamların, adət-ənənələrin, tənə və məzəmmətlərin qorxusundan hisslərini gizlədib aşiqini "söymək" istəyən məşuqəyə "nahaq yerə özünü yorma" demək idi.

İnsanın günəşə bənzər nəcib istək və arzularını palçıqla suvamaq mümkün deyildir. İnsan gec-tez hər cür buxovlardan qurtaracaqdır. Məhsətinin lirik qəhrəmanı məhz dövrün mənəvi buxovlarından azad olmuş insandır. Onun Allahı da, Kəbəsi də sevgilisidir. O, ancaq sevgilisi haqqında düşünür, onunla əlaqədar keçirdiyi hisslərdən söhbət açır. İnsana yad olmayan hər bir duyğu ona da doğmadır. O bəzən sevgilisini torpağa, suya, günəşə də qısqanır.

Yerlərə baxma ki, torpaq, su görər,
Göylərə baxma ki, gün salar nəzər.
Qeyrətdən ölərəm, ey ruhum, səni
Əgər yuxuda da görsə bir nəfər[1].

Aşiqin bu qısqanclığı xudbinlik, sevgilisinə ona məxsus olan bir əşya kimi baxmasının nəticəsi olmayıb, məhəbbətinin böyüklüyünün ifadəsidir. Burada aşiq öz hissləri ilə daha canlı verilmiş, onun şəxsiyyəti, mənəvi keyfiyyətləri təhrif edilməmişdir. 800 ildən çox keçməsinə baxmayaraq, Məhsətinin lirik qəhrəmanı bizim müasirlərimizə nə qədər bənzəyir. Məhsətinin şeirlərində insanın psixologiyası çox təbii və inandırıcı əks olunur. Müxtəlif vəziyyətlərdə təsvir edilən lirik qəhrəmanın keçirdiyi hisslər, etdiyi hərəkətlər onun halına uyğundur.

---

[1] *Frits Meyer*. Gözəl Məhsəti. Visbaden, 1963, səh. 285.

Dərddən söz açmağa məndə hanı can,
Ya qəm şərh etməyə ürək, ey canan?
Kağızı, qələmi cansız, ürəksiz
Alır, ağlayıram, atıram, aman[1].

Lirik qəhrəmanın vəziyyətini, duyğular aləmini, ümidsizliyini, hərəkətini təsvir etmək cəhətdən bu rübai maraqlıdır. Qəhrəmanın bu kiçik monoloqu müəyyən bir şəraitdə onu bizə yaxşı təqdim edir. Sevgilisindən ayrı düşən aşiq onun xəyalı ilə yaşayır, kədərlənir, keçirdiyi qəmləri, iztirabları məktubla ona şərh etmək istəyir. Lakin bunun üçün özündə lazımi taqət, ürək görmür, kağız və qələmi götürür, ağlayır, atır. Psixoloji cəhətdən şier o qədər məharətlə qurulmuşdur ki, həsrət və düşüncə məngənəsində sıxılan aşiqin əhvali-ruhiyyəsi haqqında oxucuda aydın bir təsəvvür yaranır. Müasir oxucunu Məhsəti rübaisinin lirik qəhrəmanı təmin etməyə də bilər, onun zəifliyi, qəmlər əlində əsir olub dərdini şərh etməyə çalışması yabançı görünər. Lakin məsələyə tarixi baxımdan yanaşmaq, bu qəhrəmanın nə vaxt yaşadığını nəzərə almaq lazımdır. Əks halda biz yanlış nəticələrə gələ bilərik.

Məhsətinin lirik qəhrəmanı sevgilisindən ayrı kədərlənəndə, ümidsizləşəndə dövrün qabaqcıl adamlarının kədər və ümidsizliyini ifadə edir. Bunun üçün Məcnun obrazını xatırlamaq kifayətdir. Məhsətinin qəhrəmanı Məcnunun müasiridir. Yeri gəlmişkən, onu da demək lazımdır ki, Məhsətinin qəhrəmanı ancaq kədərlənmir. O, sevgilisinin vüsalına çatıb sevinir də. Şairin vüsal dəmlərinin sevincindən bəhs edən rübailəri buna misal ola bilər.

---

[1] *Frits Meyer*. Gözəl Məhsəti. Visbaden, 1963, səh. 285.

Məhsətinin rübailərində vüsal sevincinin təsviri müəyyən yer tutsa da, şair hicran qəmlərindən daha çox şikayətlənir. O dönə-dönə ayrılıqdan, çəkdiyi əzablardan söz açır. Məhsəti rübailərinin lirik qəhrəmanı da yarın zülmündən, ayrılığından fəryad edir, lakin bu qəmi hər şeydən əziz tutur. Aşiq başa düşür ki, sevgilisinin "qəmi elə buluddur ki, yağışı bəladır, elə bir budaqdır ki, meyvəsi möhnətdir", "elə bir zəhərdir ki, dərmanı yoxdur" və s. Bu, lirik qəhrəmanı qorxutmur, o, yarın qəmi olmasa, dərdlərə düçar olacağını söyləyir.

Zamanın bu qabaqcıl şəxsiyyəti ən yüksək ideallarına çata bilməsə də, çox vaxt ondan uzaq düşsə də, bu idealların qəmi ilə yaşamaq, əzablar çəkmək ona xoşdur.

Hərçəndi odlara yandırır məni,
Qəm boğar olmasa, ey nigar, qəmin[1].

Sənsiz can bədənə qoy peykan olsun!
Qəmim yoxsa, ürək qoy viran olsun.
Qəmindən ayrı bir sevincim olsa,
Öz dərim bədənə bir zindan olsun[2].

Məhsətinin rübailərində iki əsas qəhrəman vardır: aşiq və məşuqə. Şair fikirlərini həmişə aşiqin dili ilə verir, onun gözü ilə görür, onun ürəyi ilə döyünür.

Məhsətinin lirik qəhrəmanı da daim əzabdadır, sevdiyindən ancaq cəfa görür, lakin o, sədaqətindən dönmür, öz amalına xəyanət etmir, yardan gələn bəlaları sevinclə qəbul

---

[1] *Frits Meyer*. Gözəl Məhsəti. Visbaden, 1963, səh.321.
[2] Yenə orada, səh.198.

edir. Məhsətinin məşuqə obrazı da başqa şairlərin məşuqələri kimi cəfakeş, zalım, başqaları ilə mehriban, öz yarı ilə soyuqdur.

Xasiyyətdə qışsan, üzdə ilk bahar,
Özgəsiylə meysən, bizimlə xumar.
Bizim bəxtimizin pisliyidir bu,
Yoxsa sən olmazdın amansız, ey yar[1].

Möhtaca yeni qəm yetişər hər an,
Dərdliyə yeni ox dəyər cəfadan.
Cəhd etmə aşiqi öldurməyə çox,
Bir xətər yetişər eyləmə, aman[2].

Məhsəti rübailərindəki bu cizgilər göstərir ki, şairin təsvir etdiyi məhəbbətin məzmunu daha geniş və əhatəlidir, dövrün ziddiyyətlərinin lirik, rəmzi inikasıdır. Lirik qəhrəmanın şikayətlərində müəyyən mənada dövrdən, zəmanədən şikayət və narazılıq əks olunmuşdur. Məhsətinin əldə olan əsərləri içərisində sırf ictimai-siyasi, əxlaqi, fəlsəfi məzmunlu şeirlər az olsa da, onun bir çox şeirlərində həyata, cəmiyyətə və insana dərin humanist münasibətin ifadəsini görmək mümkündür.

Məhsətinin rübailəri içərisində ayrı-ayrı peşə sahiblərinin tərənnümünə həsr olunmuş bir sıra şeirlər də vardır. Qeyd etmək lazımdır ki, bu cür şeirlər Yaxın Şərq ədəbiyyatında Məhsətidən əvvəl də məlum idi. Ayrı-ayrı sənət və peşə sahiblərinin ədəbiyyata gətirilməsi, onların əməyinin hər hansı şəkildə olursa-olsun tərənnüm olunması,

---

[1] *Frits Meyer*. Gözəl Məhsəti. Visbaden, 1963, səh.367.
[2] Yenə orada, səh.141.

şübhəsiz, humanizmin, eləcə də İntibahın təzahür formalarından biri sayılmalıdır. Düzdür, Məhsəti rübailərində, məsələn, Nizami əsərlərində olduğu kimi sadə zəhmət adamlarının əməyi öz geniş əksini tapa bilmir. Məhsəti əmək adamlarının yadda qalan ümumiləşdirilmiş obrazlarını yaratmır və rübai kimi son dərəcə kiçik həcmli şeirlərlə belə bir vəzifənin öhdəsindən gələ də bilməzdi. Lakin bununla belə, Məhsətinin rübailərindən bəzilərində əmək adamlarından danışılması, onlara məhəbbət izhar olunması heç də təsadüfi hal deyildir. Bu, quran, yaradan insana İntibah dövrünə xas münasibətin nəticəsidir. Bir çox orta əsr mənbələrində Məhsətinin ayrı-ayrı sənət və peşə sahiblərinə rübailər həsr etməsi, əsasən, yanlış başa düşülmüş, belə şeirlər ətrafında müxtəlif rəvayətlər uydurulmuşdur.

Məhsətinin "Papaqçı sevgilim şövqilə bayaq" misrası ilə başlayan rübaisinə əsasən şairənin papaqçıya aşiq olması haqqında uydurulan rəvayət buna misal ola bilər. Məhsəti bu rübailərlə və eləcə də bütünlüklə öz poeziyası ilə göstərir ki, o, hər hansı konkret bir papaqçıya, torpaq ələyənə və s. deyil, ümumiyyətlə, sadə zəhmət adamlarına aşiqdir, onlara məhəbbət bəsləyir. O, ayrı-ayrı peşə və sənət sahiblərinə məhəbbət izhar etməklə əmək adamlarına öz rəğbətini bildirir. Bu baxımdan Məhsəti rübailərindəki əmək tərənnümünü Nizami yaradıcılığında olan əməyə münasibətin ilk rüşeymləri hesab etmək olar. Eyni zamanda bunu Məhsəti yaradıcılığındakı İntibah meyllərinin təzahür formalarından biri kimi qəbul etmək lazımdır.

Məhsətinin peşə adamlarına həsr olunmuş rübailərindən hazırda çox az bir hissə əldədir ki, bunlardan da bəzilə-

rinin ona aid olması şübhəlidir. Ən mötəbər mənbələrdən olan "Nüzhətül-məcalis"də belə rübailərdən ancaq biri, Cacərminin "Munisül-əhrar fi dəqaiqül-əşar"ında isə səkkizi qeyd olunmuşdur. Həmin rübailərdə ayrı-ayrı peşə sahibləri elə səmimi bir məhəbbətlə tərənnüm edilmişdir ki, ilk baxışda həmin şeirlər şəxsi sevgi hisslərinin ifadəsi təsirini bağışlayır. Lakin məsələyə bir az dərindən yanaşdıqda, bunun heç də belə olmadığı qənaətinə gəlirik. Məhsətinin rübailərində çörəkçi, papaqçı müəzzin, toxucu, nalbənd, dülgər, başmaqçı, qəssab, dərzi, qanalan, torpaqələyən və b. sənət sahiblərinə məhəbbət izhar olunur ki, bunların hamısının şəxsi sevginin təzahürü olduğunu demək çox böyük səhv olardı. Bu, yuxarıda dediyimiz kimi əməkçi insana, şəhər sənətkarlarına olan rəğbətin bədii əksindən başqa bir şey deyildir. Məhsəti şahları, cəngavərləri, sərkərdələri, peyğəmbərləri, övliyaları deyil, İntibah dövründə yaşamış bir sıra başqa sənətkarlar kimi sadə əmək adamlarını öz əsərlərinə qəhrəman seçir, onların istək və arzularını öz istək və arzusu kimi tərənnüm edir.

Məhsətinin ayrı-ayrı peşə sahiblərinə həsr olunmuş rübailəri "tarixilik" baxımından da əhəmiyyətlidir. Həmin şeirlər çox ümumi şəkildə olsa da, odövrkü Azərbaycan şəhərlərində olan sənət və sənətkarlar haqqında məlumat verir. Məsələn, aşağıdakı rübaini götürək:

Gəncədə iki gənc iynəqayıran
Şaha şikayətə oldular rəvan.
Dedi dərzilərə Arranın şahı:
İynəni gah ondan alın, gah bundan.

Burada Məhsəti XII əsrin əvvəllərində Gəncədə iynə qayıranlar və dərzilər olmasını deməkdən əlavə, onlar

arasındakı münasibətlərə də toxunur. Sənətkarlar arasındakı münaqişələrin müəyyən bir yolla həll olunduğunu bildirir. Məhsətinin peşə və sənət adamlarına belə rəğbətli münasibəti onun əxilərə, əxi görüşlərinə yaxınlığı haqqında düşünməyə də imkan verir. Şairənin Gəncədə yaşadığı Xarabat məhəlləsi əxilərin də çox toplaşdığı yer idi. Məhsətinin sadə əmək adamları ilə bağlılığı bu şeirlərdə aydın hiss olunur.

Məhsətinin rübailəri içərisində öz dövrünün hökmdarlarına müraciətlə yazılmış və ya bədahətən deyilmiş, bəzi "mədhiyyəvari" şeirlər də vardır. Bu şeirlər mənbələrin Məhsətinin Sultan Mahmud Səlcuqi və Sultan Səncər sarayları ilə əlaqəsinə dair verdiyi məlumatı bir daha təsdiq edir. Bunlardan biri Dövlətşah Səmərqəndinin göstərdiyi aşağıdakı rübaidir:

Ey şahım, hamıdan üstün bilərək
Bəxt atını sənə bəxş etdi fələk.
Qızıl nallı atın batmasın deyə
Yerlərə sərmişdir gümüş bir örpək*.

Gördüyünüz kimi, Məhsəti rübainin imkanları daxilində mədhiyyə ənənələrinə sadiq qalaraq çox maraqlı bir əsər yaratmışdır. Dövlətşahın yazdığına görə, guya, Sultan Səncərin saray məclislərindən birində iştirak edən Məhsəti arada bayıra çıxır. Qayıdanda Sultan ondan havanın necə olduğunu soruşur. Məhsəti isə bədahətən yuxarıdakı rübaini deyir və bununla bayırda qar yağdığını bildirir. Bu rübai doğrudan da beləmi yaranmışdır? Bu suala indi qəti

---

* Tərcümə N.Rəfibəylinindir.

cavab vermək çətindir. Ancaq şeir özü bu rəvayətin doğru olmadığını deməkdədir. Ola bilsin ki, şairə bu şeiri Sultan Səncər, hətta yaxud başqa bir hökmdar müəyyən bir hərbi əməliyyatdan, səfərdən müvəffəqiyyətlə qayıdan zaman, yaxud belə bir səfər ərəfəsində olarkən demişdir. Əlbəttə, hazırda bunun o qədər də əhəmiyyəti yoxdur. Bizim üçün bu şeirin əhəmiyyəti ondadır ki, bu rübai əsasında Məhsətinin mədh deməkdə də qüdrətli bir sənətkar olduğunu görürük. Şair şahın göylər tərəfindən səadət atına mindirildiyini, göylərin onu bütün hökmdarlardan daha üstün tutduğunu bildirir, qar yağmasını da şaha qarşı olan bu xoş münasibətin bir təzahürü kimi qiymətləndirir. Əslində, guya, qar yağmamışdır, hökmdarın qızıl nallı atının ayağı yerə dəyməsin deyə göylər yeri gümüşə döndərmişdir. Əlbəttə, belə məharətlə yazılmış mədhiyyə-rübaini ancaq yüksək şairanə təxəyyülə, incə zövqə, mükəmməl ədəbi təhsilə malik bir sənətkar yarada bilərdi. Həmin rübai əsrlərin keşməkeşindən keçərək təsadüfi olaraq gəlib bizə çatmamışdır, onun haqqında yuxarıda qeyd etdiyimiz rəvayət də təsadüfi yaranmamışdır.

XIII əsrdə az tanınmış Azərbaycan şairlərindən Abdulla Cövhəri Təbrizinin tərtib etdiyi bir məcmuədə aşağıdakı rübai də mədhiyyədir.

Üç min il dolanıb günəş dünyanı,
Yaradar bir qızıl, ya gövhər kanı.
Əlimi, ovcumu bir sözlə, ey şah,
Sən etdin həm qızıl, həm gövhər kanı.

Bu rübaidə də Məhsəti böyük ustalıqla ona nə münasibətləsə bolluca bəxşiş verən hökmdara öz minnətdarlığını bildirir. Yuxarıdakı rübaidə olduğu kimi, Məhsəti burada da öz qüdrətini nümayiş etdirə bilmişdir. Birinci rübaidə Məhsəti qar yağmasından hökmdarın mədhi üçün necə istifadə edirsə, burada da hökmdarın ona verdiyi bəxşişdən eləcə məharətlə faydalanır. Şairə hökmdarın səxavətini tərifləmək üçün onu üç min il ərzində ya bir gövhər kanı və ya bir qızıl mədəni yetirən günəşlə müqayisə edir.Əgər günəş üç min il ərzində bir gövhər kanı və ya bir qızıl mədəni yetirirsə, şahın bircə sözü şairənin qucağını gövhər kanı və qızıl mədəninə döndərir.

Bu rübai Məhsətinin mədhiyyə yazmaqda ustad bir şairə olduğunu göstərməkdən əlavə, onun həyatı haqqında da müəyyən məlumat verməkdədir. Buradan aydın olur ki, şair saraylarda olduğu müddətdə rəğbətlə qarşılanmış, müəyyən vaxtlarda qiymətli bəxşişlər də almışdır.

Aşağıdakı rübaidə Məhsəti hökmdarın ədalətindən, onun düşmənlərə divan tutub onları əsir etməsindən danışır. Kimliyi bizə məlum olmayan həmin hökmdarın öz düşmənləri ilə müəyyən bir ixtilafından söhbət açılır.

Sənin ədl üzüyün, ey düşmən yıxan,
Bu uca göylərə olmuş nərdivan.
Hökmünlə birləşdir bütün aləmi,
Sənin hökmün noxta, eşşəkdir düşman.

Çox ehtimal ki, bu rübai Sultan Səncərə müraciətlə yazılmış və burada onun oğuzlarla olan münaqişələrinə işarə edilmişdir. Burada da məmduhu mədhiyyələrə xas olan bir tərzdə, mübaliğəli şəkildə tərifləmək, onun əleyhdarlarını

isə kiçiltmək, hətta təhqir etmək meyli özünü aydın şəkildə göstərir.

Məhsətinin yaşadığı dövrdən keçən 850 ilə yaxın bir zaman ərzində heç kəs onun bir şairə kimi tarixi şəxsiyyət olmasına şübhə ilə yanaşmamışdır. Məhsətinin tarixi şəxsiyyət olduğunu şübhə altına alan ilk müəllif məşhur rus şərqşünası Y.E.Bertelsdir. O, özünün "Nizami" (bu əsər 1940-cı ildə yazılmağa başlanmış, lakin yarımçıq qalmış və müəllifin ölümündən sonra prof. H.Araslının redaktəsi altında 1962-ci ildə Moskvada nəşr olunmuşdur) və "Fars-tacik ədəbiyyatı tarixi" (M., 1960) əsərlərində Məhsəti Gəncəvinin tarixi şəxsiyyət olmadığını bildirərək onu Nizaminin müasiri hesab edən tədqiqatçıları ehtiyatsızlıqda təqsirləndirmişdir. Bertelsin fikrincə, Məhsəti XII əsrin birinci yarısında yaşamış şair Cövhəri Zərgər tərəfindən yazılmış "Əmir Əhməd və Məhsəti" dastanının qəhrəmanıdır. Guya, tarixdə Məhsəti adlı şəxsiyyət olmamış, təzkirə müəllifləri "Əmir Əhməd və Məhsəti" dastanına əsaslanaraq onu tarixi şəxsiyyət kimi göstərmişlər[1]. Y.E.Bertels Nizami dövrünün ədəbi xülasəsini işlərkən Məhsətini Nizaminin müasiri və tarixi şəxsiyyət kimi bu xülasəyə daxil etməmişdir. Lakin onun Azərbaycan ədəbiyyatı tarixinə daxil edilməsi və əsərlərinin nəşr olunması faktının üstündən sükutla keçə bilməmişdir. "Nizami" monoqrafiyasının "XII əsrdə Azərbaycanda ədəbi həyat" fəslinə əlavə olaraq "Şairə Məhsəti məsələsinə dair" adlı qısa bir bəhs yazmışdır.

---

[1] *Е.Э.Бертельс.* Низами и Физули. М., 1963, стр. 77-81.

Y.E.Bertels elə ilk cümlədən Məhsətinin tarixən olmuş bir şairə kimi varlığına şübhə edərək yazır: "Bəzi tədqiqatçılar Nizaminin müasiri olan müəlliflər sırasına son dərəcə müstəsna xüsusiyyətə malik olan şairə Məhsətini də daxil etməyə meyl göstərirlər"[1]. ...Burada müəllifin qənaəti bütün aydınlığı ilə ifadə olunmuşdur. Y.E.Bertels Məhsətini Nizaminin müasiri olan sənətkarlardan hesab edən müəlliflərlə razılaşmır və bu narazılığını müxtəlif üsullarla əsaslandırmağa çalışır. O cümlədən, Dövlətşah Səmərqəndinin Məhsətini Sultan Səncər sarayı ilə bağlayan məşhur rəvayətini "əgər bu lətifədə hər hansı bir tarixi əsas varsa"[1] deyərək şübhə altına alır. Müəllif Məhsətini daha çox, guya, Cövhəri Zərgər tərəfindən yazılan "Əmir Əhməd və Məhsəti" romanında yaradılmış bədii obraz sayır, bütün sonrakı müəlliflərin Məhsətini tarixi şəxsiyyət və şair kimi təqdim edəndə bu romana əsaslandıqlarını göstərir.

Romanın özü və oradakı şeirlərə münasibətdə də Y.E.Bertels öz şübhələrindən əl çəkmir. "Romanın xarakterini, oradakı ayrı-ayrı epizodların sırf şərtiliyini nəzərə alaraq, düşünmək olar ki, onun arxasında heç bir tarixi zəmin (əsas) yoxdur"[2]. "Bir şübhəsiz vəziyyəti qeyd etmək istərdim ki, Cövhərinin romanı əsasında, əlbəttə, Məhsətinin əsl simasını yaratmağa çalışmaq olmaz. Bu roman ancaq "Əsli və Kərəm" və ona bənzər digər xalq romanları (dastanları) nə dərəcədədirsə, o dərəcədə tarixi sənəddir"[3].

---

[1] *Y.E.Bertels.* Göstərilən əsəri, səh.77.
[2] Yenə orada, səh.79.
[3] Yenə orada, səh.80.

Məhsətini XII əsr Azərbaycan sənətkarları sırasına daxil edən müəlliflərlə razılaşmayan, “Əmir Əhməd və Məhsəti” dastanındakı rübailəri “həqiqətən bu şairəyə məxsus” sayanların mövqeyinə şübhə edən Y.E.Bertels belə qənaətə gəlir ki, “Məhsəti xüsusi ad deyil, ancaq fəxri tituldur. Səlcuq hakimlərinin geniş hərəmxanalarında, ola bilsin ki, belə titul daşıyan cariyə-xanəndələr az olmamışdır”[1]. Y.E.Bertels belə hesab edir ki, Məhsəti obrazının yaranmasına ilkin təkanı, görünür ki, tarixən olmuş və bədahətən rübai deyə bilən bir xanəndə vermişdir. Həm də bu ilk Məhsəti, ola bilsin ki, Səncərdən çox əvvəl yaşamış və Sənainin poemasına düşmüşdür. Müxtəlif saraylarda təkrar edilən bu titul gözəl xanəndə və bədahətən şeir deməkdə mahir olan ümumi ədəbi obrazın yaranmasına gətirib çıxarmışdır[2].

Bütün bunlara baxmayaraq, Y.E.Bertels məsələnin bu şəkildə həlli üzərində israr etməmiş[3], onun şəxsiyyətini, ədəbi irsini daha dərindən öyrənməyi bir vəzifə kimi qarşıya qoymuşdur. “Məhsətini real sima hesab etmək olarmı, əgər Məhsəti real şəxsiyyətdirsə, o, harada yazıb yaratmışdır: Orta Asiyada, İranda, yaxud Azərbaycanda? O, XII əsrin ortalarında yaşamışdır, yoxsa xeyli əvvəl?” – deyə gələcək tədqiqatlar qarşısında ciddi suallar qoyan alim Məhsətini XII əsr Azərbaycan sənətkarları sırasına daxil etməkdən çəkinmişdir. Bu barədəki düşüncələrini, qənaətlərini, etirazlarını isə haqqında danışdığımız qeydlərində vermişdir.

---

[1] *Y.E.Bertels*. Göstərilən əsəri, səh. 80.
[2] Yenə orada, səh. 80.
[3] Yenə orada, səh. 81.

Onu da qeyd etmək lazımdır ki, Məhsətinin şəxsiyyəti və əsərlərinə münasibət baxımından A.E.Krımski də Y.E.Bertelslə, əsasən, həmrəydir[1].

Müəllifin "Məhsəti məsələsinə dair" adlı məqaləsindən aydın olur ki, ona ancaq Dövlətşah Səmərqəndi (XV əsr), Əmin Əhməd Razi (XVI əsr) və Sənaüddövlənin (XX əsr) qeydləri məlum imiş. Bütün bunlar göstərir ki, Y.E.Bertelsin belə bir səhv müddəa irəli sürməsinə səbəb onun Məhsəti ilə əlaqədar mənbələri layiqincə öyrənməməsi, bu sahədə kifayət qədər tədqiqat aparmaması olmuşdur. Sonralar da müəllif bu məsələ ilə məşğul olmamış və ömrünün axırına qədər həmin səhv müddəanın üzərində qalmışdır. Ona görə də Məhsəti Gəncəvinin tarixi şəxsiyyət olduğunu bir daha tutarlı dəlillərlə sübut etməyə ciddi ehtiyac duyulur.

Əsas məsələyə keçməzdən əvvəl yuxarıda haqqında danışılan "Əmir Əhməd və Məhsəti" dastanı üzərində dayanaq. Y.E.Bertelsin fikrinə görə, həmin dastan XII əsrin ortalarında Həmidəddin Cövhəri Zərgər Hərəvi tərəfindən yazılmışdır. Lakin Cövhəri Zərgəri müəllif hesab etmək üçün hələlik heç bir əsas yoxdur. Ancaq Dövlətşah Səmərqəndi (XV əsr) həmin dastanın Cövhəri Zərgər tərəfindən yazıldığını ehtimal edərkən belə yazır: "Əmir Əhməd və Məhsəti" dastanını Cövhəri nəzmə çəkmişdir. Deyirlər, Şeyx Nizami (yəni Nizami Gəncəvi) nəzmə çəkmişdir, ancaq doğrusunu Allah bilir". Gördüyümüz kimi, Dövlətşah bu dastanın kim tərəfindən yazıldığını dəqiq bilmir. Bəzi əlavə faktları nəzərdən keçirməklə aydın olur ki, Cövhəri

---

[1] Bax: *А.Е.Крымский*. Низами и его современники. Б., 1981, стр. 292-295.

Hərəvi "Əmir Əhməd və Məhsəti" dastanının müəllifi ola bilməz. Mənbələrin göstərdiyi kimi, Cövhəri Zərgər Məhsətinin müasiri olmuşdur. Halbuki, dastandakı ayrı-ayrı işarələr göstərir ki, onu Məhsətidən xeyli sonra yaşamış bir müəllif yazmışdır. Əvvəla, dastan müəllifi hər hansı bir rəvayət və əhvalatı danışarkən "belə deyirlər", "belə rəvayət edirlər" sözlərini işlədir, "müasirləri demişlər ki, rübai yazmaq Məhsəti ilə bitmişdir" kimi ifadələr onun Məhsəti ilə müasir olmadığını göstərir.

İkincisi, dastanda verilən rübailərin bəzilərində Çingiz xan adının çəkilməsi və "monqol çubuğu" ifadəsinin işlənməsi onun monqol istilasından sonra yazıldığını göstərir. Üçüncüsü, şübhəsiz Hafizə məxsus rübailərdən biri eynilə romanda da vardır. Buna görə də Dövlətşahın ehtimalına əsaslanaraq "Əmir Əhməd və Məhsəti" dastanının XII əsrin ortalarında Cövhəri Zərgər tərəfindən yazıldığını və onun XII əsrin nəsr nümunəsi olduğunu demək tamamilə səhvdir. Həmin dastanda Məhsətiyə aid edilən rübailərə gəldikdə isə demək lazımdır ki, onların hamısı deyil, ancaq müəyyən hissəsi Məhsətinindir.

Məhsətinin tarixi şəxsiyyət olması isə şübhəsizdir. Bunu bir çox orta əsr şair və alimlərinin müxtəlif qeydləri təsdiq edir. Məhsəti Gəncəvinin tarixi şəxsiyyət olduğunu Fəridəddin Əttar (1136-1229), Şəmsəddin Məhəmməd ben Qeys Razi (XII-XIII əsrlər), Həmdullah Qəzvini (XIV əsr), Dövlətşah Səmərqəndi (XV əsr), Qiyasəddin Xondəmir (XVI əsr), Əmin Əhməd Razi (XVI əsr) və b. alim və şairlər təsdiq edirlər. Bu müəlliflərin əsərlərində şairin həyatı və şəxsiyyəti haqqında ətraflı məlumata rast gəlməsək də, onların ötəri qeyd və fikirləri Məhsətinin tari-

xən yaşamış bir sənətkar olduğunu təsdiq etmək üçün tamamilə kifayətdir. Fikrimizi isbat etmək üçün onlardan bəzilərini nəzərdən keçirək.

Görkəmli Şərq şeiri nəzəriyyəçisi və ədəbiyyatşünası Şəmsəddin Məhəmməd ben Qeys Razi özünün "Əlmocəm" əsərində (1230-cu ildə tamamlanmışdır) təzaddan danışarkən Məhsətinin aşağıdakı rübaisini nümunə göstərir:

Xasiyyətdə qışsan, üzdə ilk bahar,
Özgəsiylə meysən, bizimlə xumar.
Bizim bəxtimizin bədliyidir bu,
Yoxsa sən olmazsan amansız, ey yar[1].

və qeyd edir ki, bu şeiri Məhsəti Sənai Qəznəviyə (təx. 1151-ci ildə vəfat etmişdir) təqlidən yazmışdır.

Məhsətinin Sənaiyə təqlid, nəzirə yazıb-yazmaması fikrini bir yana qoyaq. Qeys Razinin nümunə gətirdiyi bu rübai "Əmir Əhməd və Məhsəti" dastanında, Məhsəti rübailərinin Azərbaycanca və rusca nəşrlərində yoxdur. Digər tərəfdən Qeys Razinin əsərinin adı çəkilən dastandan əvvəl yazıldığı da şübhəsizdir. Demək, hələ "Əmir Əhməd və Məhsəti" dastanı yazılmamışdan əvvəl Məhsətinin özü və əsərləri yaxşı məlum imiş, farsdilli poeziyaya bələd olan adamlar lazım olduğu vaxtda onun əsərlərindən nümunə göstərirlər. Digər tərəfdən özü XII əsrin axırı XIII əsrin əvvəllərində yaşamış bir alim üçün Məhsəti bir şair kimi tamamilə real şəxsiyyətdir.

XIV əsr İran tarixçisi Həmdullah Qəzvini isə özünun 1330-cu ildə tamamlanmış "Tarixi-qozide" əsərində

---

[1] *Şəmsəddin Məhəmməd ben Qeys-ər-Razi*. Əlmocəm fi məaire əşarul-əcəm, Tehran, 1341, səh.246.

göstərir ki, "Məhsəti və onun əri Tacəddin Əhməd Gəncəvi Sultan Mahmud Qəznəvinin (1030-cu ildə ölüb) müasiri olmuşlar, hər ikisinin gözəl şeirləri var..."[1]. Demək, Həmdullah Qəzviniyə görə də Məhsəti tarixi şəxsiyyətdir. Lakin Qəzvininin sözlərindən yeni bir ziddiyyət meydana çıxır. Əgər doğrudan da, Məhsəti Sultan Mahmud Qəznəvinin müasiri olmuşsa, yəni XI əsrin əvvəllərində yaşayıbsa, o, XI əsrin axırı XII əsrin əvvəllərində yaşamış Sənai Qəznəviyə necə təqlid yaza bilərdi? Bu müəmmanı başqa bir orta əsr müəllifi – XVI əsr tarixçisi Qiyasəddin Xondəmir açır. O yazır: "Müxtəsər Cəlali tarixi"ndə qeyd edilmişdir ki, Məhsəti və Gəncə Xətibinin oğlu Sultan Mahmud Səlcuqinin (1118-1131-ci illərdə hökmranlıq etmişdir) müasiri olmuşlar. "Tarixi-qozidə" müəllifi onları Sultan Mahmud Qəznəvinin müasiri kimi göstərir. Bunu ya o özü səhv etmişdir, ya da katib qələt yazmışdır"[2]. Demək, XVI əsr müəllifi üçün də Məhsəti tarixi şəxsiyyətdir. Xondəmir hətta hələlik elm aləminə məlum olmayan bir mənbəyə əsaslanaraq Məhsətinin yaşadığı dövrü də müəyyənləşdirir. Mənbə o dərəcədə mötəbərdir ki, müəllif ona əsaslanaraq inamla öz sələfinin səhvini düzəldir və göstərir ki, Məshəti Sultan Mahmud Səlcuqinin müasiri olmuşdur. Cəlali sözü Sultan Məlikşah Səlcuqinin (1092-ci ildə ölüb) fəxri ləqəbi olan Cəlalüddövlənin qısa formasıdır. Lakin çox qüvvətli ehtimala görə,

---

[1] *Həmdullah Mustovfi Qəzvini*. Tarixe-qozide, London, 1910. səh. 816-829.

[2] *Qiyasəddin Xondəmir*. Həbibüs-siyər, Tehran, 1270, səh.1880.

burada Məhsətinin sağlığında yazılmış və Səlcuqilər sülaləsinin tarixindən bəhs edən bir əsərdən söhbət gedir. Xondəmirin bu əsərə istinad edərkən göstərdiyi inamdan, qətilikdən aydın olur ki, bu mənbə çox mötəbər bir mənbədir. Həmin mənbəyə görə, Məhsəti tarixi şəxsiyyət olmuş və bir şairə kimi Sultan Mahmud Səlcuqinin dövründə, yəni XII əsrin birinci yarısında yaşamışdır.

Sultan Mahmud Səlcuqinin Sultan Mahmud Qəznəviyə çevrilməsi hər hansı mexaniki bir səhvin nəticəsindən başqa bir şey deyildir. XV əsr təzkirəçisi Dövlətşah isə Məhsətini Sultan Səncərlə bağlayır. O yazır ki, Sultan Səncər (1118-1158) dövründə Ənvəri, Sabir Tirmizi, Əbdülvase Cəbəli..., Məhsəti kimi böyük şairlər yazıb-yaratmışlar[1]. Sonra Məhsəti haqqında bir rəvayət nəql edir. Adları çəkilən şairlər kimi, Məhsətinin də tarixi şəxsiyyət olduğu heç bir şübhə doğura bilməz.

Bütün bu və digər orta əsr müəlliflərinin bu cür qeydlərini tənqidi surətdə nəzərdən keçirdikdən sonra qətiyyətlə demək olur ki, Məhsəti həqiqətən tarixi şəxsiyyət olmuşdur. O, təxminən XI əsrin son illərində, daha dəqiq desək, 1095-ci ildə anadan olmuş və XII əsrin birinci yarısında yazıb-yaratmışdır. Öz incə ruhlu şeirlərilə şöhrətlənən şairə ömrünün müəyyən müddətini Sultan Mahmud Səlcuqi və Sultan Səncər saraylarında keçirmişdir. Orta əsr mənbələri Məhsətini "Əmir Əhməd və Məhsəti" dastanından çıxış edərək tarixi şəxsiyyət kimi göstərməmiş, əksinə hələlik naməlum olan bir müəllif tarixi şəxsiyyət

---

[1] *Dövlətşah Səmərqəndi*. Təzkirətüş-şüəra, Bombey, 1318, səh. 60.

olan şairə haqqındakı rəvayətlər və onun rübailəri əsasında bir dastan duzəltmişdir. Bu dastanda təkcə Məhsətinin özünə istinad edilən rübailərin müəyyən hissəsi deyil, hətta başqa personajların dilindən deyilmiş bəzi rübailər də bu gözəl Azərbaycan şairəsinə məxsusdur. Bunu son dövrlərdə bir sıra mötəbər mənbələrdən aşkar edilmiş və Məhsətinin olduğu şübhə doğurmayan rübailər təsdiq edir.

Eyni zamanda bəzi rübailərin həm Məhsətiyə, həm də başqa müəlliflərə isnad edilməsi də Məhsətinin tarixi şəxsiyyət olmaması demək deyil. Əksinə, onun bir sənətkar kimi Yaxın Şərq İntibah mədəniyyətinin Xəyyam, Xaqani, Nizami, Zəhirəddin Faryabi, Hafiz və başqa görkəmli nümayəndələri ilə bir sırada durduğunu göstərir. Bunu son dövrlərdə ən qədim və mötəbər mənbələrdən götürülmüş və çoxu yuxarıda adı çəkilən dastanda olmayan rübailər bir daha açıq-aydın təsdiq edir. Həmin mənbələrdən biri və ən əhəmiyyətlisi XIII əsrin ortalarında Cəmaləddin Xəlil Şirvani adlı indiyə qədər naməlum bir Azərbaycan şairinin tərtib etdiyi rübailər məcmuəsidir. “Nüzhətül-məcalis” (“Məclislərin sevinci”) adlanan bu məcmuə hazırda İstanbulun Carullah kitabxanasında saxlanılır. XIII əsrin ortalarına qədər yazıb yaratmış və çoxu azərbaycanlı olan 380 nəfər şairin rübailəri toplanmış həmin bu məcmuənin əsas əhəmiyyəti ondadır ki, burada hamıdan çox Məhsəti rübailərinə yer verilmiş və onlardan 75 nümunə göstərilmişdir. Halbuki, lirik şeirlər divanı iyirmi min beytə yaxın olan Nizami Gəncəvinin rübailərindən cəmi on, Şərq ədəbiyyatında rübai şeirinin ən görkəmli nümayəndəsi kimi tanınan Ömər Xəyyamın şeirlərindən isə ancaq 33 nümunə göstərilmişdir.

Yeri gəlmişkən demək lazımdır ki, Nizaminin bu on rübaisi də indiyə qədər naməlum idi, onları ilk dəfə 1956-cı ildə İran alimi Səid Nəfisi çap etdirmişdir. Məcmuədə olan Məhsəti rübailərini isə digər mötəbər mənbələrdən götürülmüş şeirlərlə birlikdə ilk dəfə 1963-cü ildə alman şərqşünası Frits Meyer nəşr eləmişdir. Bizcə, "Nüzhətül-məcalis"də Məhsəti Gəncəvinin və Nizaminin adına yazılan rübailərin həmin sənətkarlara məxsusluğuna heç bir şübhə ola bilməz. Məhsətinin bu məcmuədəki rübailərinin, demək olar ki, hamısı tamamilə yenidir və yuxarıda adı çəkilən dastanda yoxdur. Bu rübailər bir daha təsdiq edir ki, Məhsəti bir şair kimi nəinki təkcə tarixi şəxsiyyət olmuş, eyni zamanda o, rübai janrının ən görkəmli nümayəndəsi kimi tanınmışdır. "Nüzhətül-məcalis"də Məhsəti rübailərindən 75 nümunə verilməsi belə bir ehtimal irəli sürməyə imkan verir ki, şairin şeirləri XIII əsrin ortalarında bir məcmuə-divan şəklində məlum və məşhur imiş. Cəmaləddin Xəlil Şirvani də həmin divanda olan şeirlərdən 75 rübaini seçərək öz bayazına daxil etmişdir[1].

Məhsətinin həyatı və şeirləri öz zəmanəsindən başlayaraq şeir və sənət adamlarının diqqətini cəlb etmişdir. Orta əsrlərdə onun haqqında rəvayətlər və xüsusi bir dastan yaranmışsa, müasir sənətkarlar ona şeirlər, poemalar, romanlar həsr etmişlər. M.S.Ordubadinin "Qılınc və qələm" romanında Məhsəti müdrik, xalq tərəfdarı olan bir sənətkar kimi təqdim olunmuşdur. Mirvarid Dilbazinin poema-

---

[1] Bax: *X.Yusifov*. Məhsətinin şəxsiyyəti, ADU-nun "Elmi əsərləri", 1978, №2, səh.12-16.

sında, N.Rəfibəylinin şeirində, Kəmalə Ağayeva və Məmmədhüseyn Təhmasibin pyeslərində isə o, xəlqi, humanist bir şairə kimi canlandırılmışdır.

XII əsrdə belə istedadlı bir qadın şairin yetişməsi həmin dövrdə Azərbaycan xalqının ictimai-siyasi və mədəni sahədə qazandığı nailiyyətlərin təzahürlərindən biridir. Məhsəti Gəncəvi İntibah dövründə Azərbaycan ədəbiyyatının asimanında öz yeri olan, gözə tez çarpan parlaq ulduzlardan biridir.

Məhsətinin oxuculara təqdim olunan indiki nəşri iki bölmədən ibarətdir. Birinci bölməyə Frits Meyerin 1963-cü ildə Visbadendə nəşr etdirdiyi "Gözəl Məhsəti" adlı kitabdan, Şihab Tahirinin "Divani Məhsəti Gəncəvi" (Tehran, 1336 h.s.) kitabından götürülmüş rübailər daxildir. Bu rübailər dünyanın dürlü kitabxanalarında saxlanılan daha mötəbər əlyazmalarından götürülmüş və onların Məhsətiyə aid olması şübhə doğurmur. Bu şeirləri 1984-cü ildə "Məhsəti Gəncəvi" kitabına əlavə kimi çap etdirmişdik. Bu rübailər tərəfimizdən vəznində, rübai ölçüsündə tərcümə edilib.

İkinci bölməyə daxil olan şeirlərin çoxu "Əmir Əhməd və Məhsəti" kitabından götürülmüş və bəzi son dövrlərə aid qaynaqlardan götürülən şeirlər də onlara əlavə olunmuşdur. Bu bölməyə daxil olan şeirləri ilk dəfə 1940-cı ildə Həmid Araslı nəşr etdirmişdir. Sonralar həmin şeirlərin tərtibi ilə M.Sultanov məşğul olmuşdur. Nigar Pəfibəylinin ustalıqla Azərbaycan türkcəsinə çevirdiyi bu rübailər oxucular tərəfindən rəğbətlə qarşılanmış, dönə-dönə (1957, 1975, 1981-ci illərdə) çapdan çıxmışdır. Vaxtilə

Y.E.Bertels buna qəti etiraz bildirmiş, bədii əsər olan "Əmir Əhməd və Məhsəti" kitabında əsərin bir surəti olan Məhsətinin dilindən deyilən şeirlərin onun əsərləri kimi seçilib nəşr olunmasını elmi cəhətdən doğru saymamışdır. Ancaq bu şeirlərin oxucular tərəfindən sevildiyini, Məhsəti sevərlərin bu şeirləri əzbər bildiyini nəzərə alaraq, onların da Məhsəti əsərlərinin bu nəşrində verilməsini faydalı və lazımlı bildik. Bəzi şeirlərin tərcümələri hər iki bölmədə vardır. Bu o deməkdir ki, vaxtilə nəşr olunan, Məhsətinin sayılmayan şeirləri arasında da əsl Məhsəti əsərləri vardır. Bunları Məhsəti şeirləri kimi nəşr etməmək yanlış olardı. Xəlil Yusiflinin "Məhsəti Gəncəvi" ("Yazıçı" nəşriyyatı 1984) kitabına əlavə kimi verilən şeirlərin isə Məhsəti əsərləri kimi ilk dəfə bu şəkildə nəşri oxucular üçün qiymətli bir hədiyyə olacaqdır.

***Xəlil Yusifli***

# *I bölmə*

Sərxoşlara gül saçmağa yellər gəldi,
Dildarına mey süzməyə dilbər gəldi.
Öldürməyə gəlmişdir o göz hüşyarı,
Xar etməyə əttarı o ənbər gəldi.

Qəm görmüşə hər gün yeni bir qəm yetişər,
Dərd ilə yanan qəlbə dava kəm yetişər.
Aşiqləri öldürməyə çox meyl etmə,
Bir gün sənə də bəla, ey sənəm, yetişər.

Görsən məni bir söylə nədən dinmirsən?
Qan tökməyə təşnədir gözün, dönmürsən.
Çərxinmi cəfasıdır çatılmış qaşlar,
Cəlladmısan, insanlığa öyrənmisən?

Sən söylədin, ey gözəl: “Üzüm bir cənnət,
Yurdun, yuvan ondan tapacaq min ziynət”.
Düzdürmü sənin sözün, yalandır yoxsa,
Dillənməyə könlündə kimin var cürət?

Güllər gül üzündən lap əcəb qaldı xəcil,
Ağzın dadını gördü, rütəb qaldı xəcil.
Könlündə ədəbsizlik əgər varsa, çəkin,
Etsən də ədəbsizlik, ədəb qaldı xəcil.

Düşmənlərimə həmişə sən dəm tutdun,
Gəldin mənə naz eylədin, üz turşutdun.
Göy pərdəsi ardında oyunlar vardır,
Nazınla məni yetər, yetər, qorxutdun.

Ərlər yıxan ağ boynuna bir xal qonmuş,
Boynunda o, bir tilsim imiş, əfsunmuş,
Zənn etmə nişandır o gül əndamında,
Boynunda qalan ürək qanımdır, donmuş.

Bir busə üçün, – dedim, – ləbim mehmandır.
Bir busəm üçün, – dedi, – baha bir candır.
Ağlım gələrək vurdu mənim böyrümdən,
Yəni, – dedi, – al, bu müftə mal hardandır?

Zülfümlə gərək tutum səni zəncirdə,
Axtarmayım axşamkı kimi hər yerdə.
Məst olmadan əvvəl söz açım dərdimdən,
Məst oldu deyib gülmə mənə sən bir də.

Axşam məni tutdu yenə sərxoş dildar,
Göz vurdu, bacarsan, yenə bir qaç, qurtar.
Dindim: "Gecədir, tutma əlimdən, gen dur,
Birdən bizi bu halda görərlər, zinhar".

Məst idi yenə sübh dünən bülbül də,
Gəlmişdi tutub müjdə üçün can əldə.
Söylərdi əsən yellərə: "De, Tanrı üçün,
Güldən nə soraq var gör obada, eldə".

Ta açdı sənin naməni yorğun bəndən,
Öpdü nə qədər xəttini məftun bəndən.
Vədinlə sənin könlü, gözü şad oldu,
Göz dikdi gələn yollara vurğun bəndən.

Yer verməz ürək gözdə sənə, xar olasan,
Qəlbində də qoymaz ki, gülüm, zar olasan.
Canımda sənə yer verərəm ancaq mən,
Son dəmdə gəlib, bəlkə, mənə yar olasan.

Qəlbin dediyilə nə qədər xar oldun,
Bir zalıma sən gör nə giriftar oldun.
Anlarsan ürək, eşq nə divan tutmuş,
Bir gün yuxudan onda ki bidar oldun.

Bir cismimə bax: içində qəlbim viran!
Bir canıma bax: düşübdür oddan tufan!
Bir bax gözümə, bir gül üzün eşqindən
Yaşlar süzülür hər zaman ümman-ümman.

Bir cüt gözün ilə nə qədər qan etdin,
Zülfünlə nə çox qəlbi, de, viran etdin!
Allah özü qoy qəlbinə insaf versin,
Bəlkə, yazıq aşiqlərə dərman etdin.

Hüsnün ayı heç özündən artıq saymaz,
Bir kimsəyə əfsunla da heç vaxt uymaz.
Bir xətt çəkib dövrəsinə, ta ordan
Bir damcı da qan qaçmağa imkan qoymaz.

Xəttin çıxarıb bənövşələr tər güldən,
Xətt çəkmiş aya, könlü nə istər güldən?
Daim gecədən sübh doğardı, ancaq
Doğmuş gecə sübhündən – o dilbər güldən.

Gözdən yaş axıtma, bu işə sən yad ol,
Qoy qəmləri mən çəkim, sevin, sən şad ol.
Məşuqəyə olmaz ağlamaq, yaş tökmək,
Tərk et bunu biçarə mənə, azad ol.

Hicrinlə yetər, səbrimi, ey gül, qırma!
Zulmünlə yetər, əhdini gəl sındırma!
Dəymirsə də naməm yazasan bircə cavab,
Barı oxu, odlarda məni yandırma.

Bağlarda gülüzlər görərək sərv, yaman
Naz ilə deyirdi öz boyundan dastan.
Bir söz dedi qəddindən ona sübh yeli.
Qarşında sənin səcdəyə durdu asan.

Zülfün necə eylər üzünə naz, gör bir,
Qorxum var olum paxıllığımdan kafir.
Mən bəndəsi ollam o yelin, ağ üzdən
Qaldırmağa görsün saçını bir tədbir.

Axşam yenə tutdum o yarı mən birdən,
Yüz-yüz öpüş aldım o xurma ləblərdən.
Yar istədi söysün məni, hər busəmlə
Ağzındaca qırdım söyüşü dərhal mən.

İncitmə, – dedim, – yarımı, ey qızdırma!
Allahı gör, insaf elə, get tez, durma.
Qızdırma dedi: "Əsmə ona məndən çox,
Səndən çox ona mən yanıram, üz vurma".

Ta düşdü bu cür ortaya hicran, könlüm,
Qorxum var, ola can evi viran, könlüm.
Gen düşməmisən sən ki yanından yarın,
Üzr istə mənim dilimcə ondan, könlüm.

Dərdinlə qəmin könlümə olmuş qismət,
Arzunla ürək göynədi həsrət-həsrət.
Nuruyla üzün qəlb evimə şam tutdu,
Andım ləbini, tapdı könül min ziynət.

Etdim dəvə üstündə yaman ah-əfğan!
Səpdim dəvənin yollarına dürr, mərcan.
Karvan su içib boşaldılan hər quyunu
Doldurdum o dəm mən gözümün yaşından.

Dersən: iki yaqut dodağım şəkkər, bal,
Bir busə dilərsən, canını göndər al.
Can tapsam əgər, allam onu yüz borca,
Bir busəyə verrəm iki yüz can dərhal.

Bir bax, o bənövşəlik nə xoşdur, dilkəş!
Çöllərdə tutub sanki kükürd od, atəş.
Qəmlər çəkən insan tək əyilmiş qəddi,
Yar ətri kimi ətri gözəldir, məhvəş.

Bir göz ki baxıb yollarına həsrətlə,
Qoyma kor olar ağlayaraq möhnətlə.
Bir xəstə könül ki səni, ancaq səni sevmiş,
Zülfündə əsirdir, onu tut hörmətlə.

Qəmdən nə qədər silsin ürək üzdən qan,
Bir vəslinə etsin nə qədər can qurban,
Rəhm eylə ki, can yağmır axı göylərdən,
Əfv eylə, ürək göyərməyir torpaqdan.

Olmaz bu qədər ağıllı heç bir insan,
Mehrin, qılığın etdi məni lap heyran.
Şad olmuşam, ey yar, bu gecə vəslindən
Qorxum budur ancaq gələ birdən hicran.

Sözlə məni qəmdən o gün azad etdin,
Vədinlə dünən qəlbimi çox şad etdin.
Çıxmışsa o gün söylədiyin fikrindən,
Bəlkə dediyin vədini bir yad etdin?!

Qəlbim sənə bağlandı, nahaq etdim mən,
Eşqin yox imiş, qəlbimi incitdim mən.
Çəkdim qəmini, qeyrlə sən şad oldun,
Allah sənə sən tək verə yar, getdim mən.

Sevgin, demərəm, könüldə peyda olsun,
Əksin gözümə, istəmə, şeyda olsun.
Könlümdə, gözumdə olmasın sevgin qoy,
Yurdun nə cəhənnəm, nə də dərya olsun.

Dərdinlə sənin hər gecə bir qəm gördüm,
Ağlar gözümü həsrət ilə nəm gördüm.
Nərgis gözün aldatdı, yuxum qeyb oldu,
Ömrümdə şirin bir yuxu mən kəm gördüm.

Qurdu suyun ahıyla fələk çardağı,
Tonqal qaladı canda qəmin yığnağı.
Yellər kimi daim gəzirəm dünyanı,
Hardandı görüm vücudumun torpağı.

Hər kimsə ki eşq ilə yanan olmuşdur,
Axşamları səccadəsi qan olmuşdur.
Aləm bilir, eşqin çadırı dünyadə
Göydən də uzaqda dayanan olmuşdur.

Hardan gecə bilsin çəkir aşiq nə sitəm,
Bilsin nə bəlalar çəkir o taleyi kəm.
İnsanlar onu məhv eləyər sirr açsa,
Gizlətsə, onu məhv eləyər mütləq qəm.

Qəlbim kimə eşqindən əgər söz söylər,
Başlar sözu, hicran qəmini yüz söylər.
Baxsan yenə naz ilə, gülər qəm vurmuş.
Var ol, məni güldürmüsən, ey göz, söylər.

Eşqinlə yanan qəlbimə saldın odlar,
Baxdın suda öz hüsnünə təkrar-təkrar.
Gördün saçını, bəxtiməmi oxşatdın,
Atdın o qara zülfü yerə, ey dildar.

Çəkdim necə qəm, gör ki, sənin hicrindən,
Bir dost olub ağladı mənə hər düşmən.
Etdim o qədər nalə sənin eşqinlə,
Yandı halıma bütün gecə şam qəlbən.

Səndən nə doyar, nə dönnəm asanlıqla,
Öldürsən əgər, nə dinnəm asanlıqla.
Nə özgəni yad eyləyərəm xoşluqla,
Bir qeyri nə də bəyənnəm asanlıqla.

Bir söylə, nə olmuş o əhd, peymanlar,
Əhd etməyə cəhd eylədiyin dövranlar.
Mən bir günah etməmiş nədən bal sözlər,
Dönmüş zəhər olmuşdur, adam peşmanlar.

Könlüm hanı dərdimdən açım mən söhbət,
Qəmdən deməyə canımda yoxdur taqət.
Fikrimdən əgər keçsə də məktub yazmaq,
Yoxdur buna qəlbimdə mənim güc, qüdrət.

Zülm ilə alıb qəlbimi yarım candan,
Qaytarsa da, almaram qaçıb mən ondan.
Məhşərdə ürəksizcə durub qoy yerdən,
Olsun bu, bəhanə, yapışım canandan.

Mən ki bu qədər ağlaram aşkar-pünhan,
Zənn eyləmə qorxutdu məni tək bir can.
Gəldin, gözümə sudan lətif görsəndin,
Ağlatdı bu halın məni nalan-nalan.

Dərdin o buluddur gətirər qəm, həsrət,
Dərdin o budaqdır bitirər yüz möhnət.
Neylim bu zülmkar, bu inadkar bəxti,
Dərdin mənə zülm ilə edibdir qismət.

Arxında suyun axmasa da bəndənlə,
İnsanlığı tərk eyləmərəm mən sənlə.
Sordun ki, nə etmişəm sənə, aç söylə,
Artıq nə deyim, neyləmədin sən mənlə.

Baxma yerə, torpaq, su görər, ey dilbər,
Baxma göyə, gün salar nəzər, ey dilbər.
Görsə, ölərəm, inan ki, mən qeyrətdən
Bir kəs səni röyadə əgər, ey dilbər.

Dərdin o buluddur ki, tökər gözdən qan,
Dərdin o zəhərdir ki, ona yox dərman.
Hər ləhzədə min qəlbi yıxar dərd ilə,
Dərdin nə ürək qoyar, nə də sağlam can.

Yaşlar axıdar qəmli üzümdən dərdin,
Zülm etmədə qalmazdır özündən dərdin,
Yansam da mən odlarda sənin dərdindən,
Qəmdən yanaram, getsə gözümdən dərdin.

Yoxdursa bu qəmlərdə mənə bir yan ol,
Ey göz, daha qan ağla, könül sən qan ol.
Eşqin qəmini sən ki təzə çəkmirsən,
Könlüm, nə deyim eşqə necə qurban ol.

Hiyləylə tutub əllərimi bağlarsan,
Zülfünlə də bütpərəstə gün ağlarsan.
Nərgizlərinə sübh buyursan hərgah,
Hüşyarı tutub məst deyə saxlarsan.

Göydə ayı nur saçdı, üzün sındırdı,
Sərvin belini sərv qamətin qırdı.
Mən canımı almışdım ürək qanımla,
Getdi sənə qurban, məni bu yandırdı.

Bilmir niyə könlüm necə dildar oldum,
Könlüm nə çəkir, gör necə ağlar oldum.
Qəh! Qəh! Nə yatırsan gecələr asudə!
Bəh! Bəh! Gecəmə gör necə bidar oldum.

Mişkindir üzün, saçınsa qandan əlvan,
Amma ki bilirsənmi necə, ey canan,
Üz mişkdir, amma ki hələ nafədədir,
Çıxmışsa da nafədən, olub zülfün qan.

Səs saldı bütün aləmə bu qəm, möhnət,
Tuş gəlmədi vəslin mənə, qaldım həsrət.
Zülmündən olub qəmim mənim həddən çox,
Dözdüm necə bu qəmlərə heyrət, heyrət!

Düşmüş bu gecə bəxtimə təklik, hicran,
Könlümdə qalar sabah bu qəmdən tufan.
Buymuş payın, ey gözüm, yetər qan ağla,
Odlarda yan, ey könül, bu olmuş fərman.

Gülgündür üzün, bənzər ona tər güllər,
Bənzər sənə qamətdə də sərv, ey dilbər.
Bülbül soruşur səsində qəmlər güldən:
“Aləmdə gülə varmı görən tay, bənzər?”

Eşqinlə sənin can oda yaxsan, azdır,
Göz yaşı olub üz boyu axsan, azdır.
Zülfündə daraqlar kimi gəzmək xoşdur,
Saçlarda itib zülfünə baxsan, azdır.

Görsə üzünü huri xəcalətdə qalar,
Göylər günəşi nuru üzündən pay alar.
Hər dəm üzümüz gül üzünə həsrətdir,
Ayrılsa üzündən üzümüz yaşla dolar.

Sənsiz nəfəsim köksümə peykan olsun,
Sənsiz yaşasa, qəlb evi viran olsun,
Könlümdə sevinc olsa qəmindən qeyri,
Küllən bu vücudum ona zindan olsun!

Qan tökməsə gözlər yenə gözlərdim mən,
Qəlbimdə sənin sirrini gizlərdim mən.
Olmazsa bu solğun bənizim, fəryadım,
Hər sirrini can-başla əzizlərdim mən.

Olsaydı əgər məndə deyək yüz min can,
Qarşında mən onları verərdim qurban.
Qəlbində bu hicrana dedin tab varmı,
Qəlb olsa idi, qəlbimə neylər hicran.

Əvvəl sənə öz qəlbimi göstərməzdən,
Asudə idim eşqə könül verməzdən.
Allaha şükür, sənin qulundur qəlbim,
Bağrım kimi bax yoxsa tökərdim gözdən.

Nəymiş görəsən dərdi, o ənbər saçlar
Çıxmış, de, başından bu sayaq, ey dildar?
Dərdindən əgər tük kimi incəlsəm də,
Barı belə çıxmaram başından, zinhar!

Gəldi gecə, zülmətdə yox oldu aləm,
Gəldi mənə də qismət oyaqlıq həmdəm.
Bildirdi günəş də aya: bezdim bəsdir!
Sındırdı fikir çənbərini çərxin qəm.

Zülmət gecə qəm çəkməyə nə həmdəmsən,
Cismim kimi incəlməmisən, möhkəmsən.
Aşiqlərə qiymət verə bilməzsən sən,
Aşiq deyil, eşq əhlinə nə məhrəmsən.

Şehdən payız içmişdir ağaclar badə,
Sərxoşca bir il çiçək tutur röyadə.
Açsın deyə bağlarda çiçək lalələri
Min teşt kimi düzüb çəmən səhradə.

Dar köksümü qəmlərin seçibdir meydan,
Güllər üzünü görüb qalarlar heyran.
Daş qəlbinə təsir eləmir göz yaşım,
Bir söylə, nə daşdır ürəyin, nə zindan!

Sən hər nə qədər istəməsən qəmlər var,
Sevgində də hicran dolu çox dəmlər var.
Ayrılmağın əyyamı gəlib, bir dillən,
Bir dəmdə, özün gör, necə aləmlər var.

Hərgah ki, gözümdən yaşım əlvan tökülər,
Ağlar mənə göy, yaşı bir ümman tökülər.
Səndən gözüm ayrıldığı gün qan tökdü,
Ayrılsa bədəndən baş əgər, qan tökülər.

Didarına, ey gül, o vurulmuş gəldi,
Könlündəki həsrət, o qor olmuş gəldi.
İnsaf dəni səp, tazə qəfəs qur bir də,
Bir də o qanadları qırılmış gəldi.

Həsrət yenə bağrımda mənim qövr eylər,
Dövrəmdə gəzər qəmin, mənə cövr eylər.
Can qurban edim eşqinə söylər könlüm,
Beynimdə də ancaq bu xəyal dövr eylər.

Sevdaya gərəkdir canı qurban et sən!
Şad olmaya könlün, onu viran et sən!
Vəslindən onun zərrə qədər pay görmə,
Dərd ilə atıb aləmi əfğan et sən!

Şəhla gözün, ey gözəl, baxsa məstanə,
Sərxoş da gələr, mey də gələr əfğanə.
Rəqs eyləsə saçların sənin bir ləhzə,
Yüz fitnə qopar, könül gələr tüğyanə.

Ömrüm, – dedim, – oldu daha puç, rəhm eylə!
Dünya, – dedi,– korlandı həsəddən beylə,
Bir busə verərsənmi, – dedim, – can versəm?
Busəm, – dedi, – alçaldı haçandan, söylə!?

Biçarə təbük qorxmasa səndən, canan,
Hər bir yerinə mən kimi olmaz heyran.
Səndən nə qədər təpik yeyir, heç bezmir,
Tez-tez qayıdır, öpür ayaqlarından.

Arxında axan hər suya qurban ollam,
Xasiyyətin od! Yolunda candan ollam,
Hər tapdadığın torpağa ollam bir qul,
Ətrinlə gələn yellərə heyran ollam.

Qəm şadlığa çevrilər sənin lütfündən,
Daimi olar ömür dönüb baxsan sən.
Çatdırsa yanından ora yel bir torpaq,
Düzəxdə olar həyat suyu od birdən.

Zülm etsə mənə çörəkçi dilbər hərgah,
Kin ilə deyil, naz ilə eylər gah-gah.
Qaldım qəminin əlində mən sanki xəmir,
Qorxum budur: atsın oda yarım nagah.

Püstəndə gülüşlər gəzir, ey dilbər, bax!
Bir gün kimidir üzün, gözəldir, parlaq!
Gördüm ki, yonur, rəndə çəkirsən gah-gah,
Yoxdur sənə bənzər yonulu heç ancaq.

Gördük nə qədər zülm gözəl qəmzəndən,
Düşdük qəmə qəddin kimi bir düşməndən.
Şahmatını düz oyna vəfa taxtında,
Bir gün mat edər, heyfimi allam səndən.

Dartar yayı yağdırar o türküm oxlar,
Aşiqləri köksündən o hər dəm oxlar.
Gör bir nə çevik usta bir insandır ki,
Qalxar gecə zərbindən onun ax-oxlar.

Məlin baharın taxtını talan etdi,
Məst etdi o badam məni nalan etdi.
Şaftalına həsrət mənəm, ey alma yanaq,
Heyva kimi mən saraldım, o qan etdi.

Başmaqçı verir başmağa hər dəm ziynət,
Ləli toxunur başmağa gah-gah, heyrət.
Bir bal dodağın süslədiyi bir başmaq
Göylərdə günəş tacı olar, ey afət.

Oğlan, sənə etdim nə qədər xidmət mən,
Rəhm eyləyəsən – dedim – mənə bir gün sən.
Bir bəndə kimi çıxmaram əmrindən heç
Ey can, nə də dönnəm səninlə əhdimdən.

Nəsrinin o gün vurdu mənə atəşlər,
Yellər bizə göstərdi dünən sünbüli-tər,
Sənsiz sudayam bu gün sanki nilufər,
Torpaq tökərəm sabah başa, ey dilbər.

Od vurdu o gün Nişapura tər güllər,
Göstərdi dünən su Mərvdə nilufər.
Əsdikcə bu gün Herat yeli can bəslər,
Olmazmı sabah Bəlxdə torpaq ənbər?!

Odlardan o gün çəkdi lalələr xəncər,
Atdı suya qalxanı dünən nilufər,
Ey yel, zirehi bu gün səməndən tulla,
Bir qönçəni yer sabah dəbilqə eylər.

Tər laləyə bənzər o müəzzin oğlan,
Görsə üzünu çəkər xəcalət lap qan.
Qəddindən onun söz düşəndə aləmdə,
Sərv eylədi səcdə ona heyran-heyran.

Əladır üzün tər-təzəcə güllərdən,
Xəttin, qırışın Xəllüx ilə Bərbərdən.
Bərbərli əgər görsə səni bəndən olar,
Baş qoy sinəmə öpüm ipək tellərdən.

Ey zülfü tökən burum-burum, həm çin-çin,
Xəttinlə sənin bir-birinə dəymiş Çin.
Çin mülkünə qaçmışdır əlindən huri,
Vermiş sənə dünyanı, sözün çıxmış çin.

Yarın nazına artıq o taqət yoxdur,
Könlümdə daha o od, hərarət yoxdur.
Qəlbimdəki odlardan əsər görsənmir,
Dilbərdə də o hüsn, təravət yoxdur.

Ləlindən onun görüb pay umdun, ey sap!
Ləlinə tərəf yel kimi cumdun, ey sap!
Ömrün nədən iynədə gödəkdir böylə,
Sən ki o həyat suyunda çimdin, ey sap!

Yarım dedi ki, durma, ələ bir cam al.
Qəm çəkmə, mey iç, bu dünyadan ilham al.
Sordum ki, noğul, heyva, yoxsa nar olsun?
Alması dedi: – Şaftalu, ondan kam al.

Şamdır üzün, ey gözəl, könül pərvanə,
Zülmündən olub eşqə düşən divanə.
Eşqin verəcək katibi bir gün fərman
Ləb xətti ilə ağ üzünə mərdanə.

Şux olmalıdır sevgili, oynaq, dildar!
Aşiq gərək eyləsin nalə, min ah-zar.
Qəlbin, – dedi, – məndədir apar gəl, durma!
Bildirdim ona: – Sənsən alan, sən qaytar.

Zülfün təzənə, neydir o şümşad qamət,
Səndən nə göyərçinbaz olar, ey afət!
Çırpınmadadır ürək göyərçinlər tək,
Vəslin neyinə ta qalacaq kim həsrət.

Od tək yuva qursan da daşdan, ey saqi,
Axmazmı əcəl seli başdan, ey saqi.
Dünya quru torpaqdır, oxu, ey mütrüb,
Yeldir bu nəfəs, başla başdan, ey saqi.

Yollardakı tozlar kimi tapdansan da,
Yellər kimi hey qaçmağa qatlansan da,
Zinhar, əgər versə sənə abi-həyat,
Alçaqlar əlindən su alma, yansan da.

Yarımla o gün etdim əcəb bir söhbət,
Doydunmu, – dedim, – məndən? O dedi: – Əlbət.
Dilləndi dedi: – Ağzını aç, bir söz de.
Dindim: – Nə deyim? Dedi: – Budur hə qismət.

Şaftaluna bax bir sən, a şümşad qamət,
Gəldi mən öpüm doyunca, heyrət, heyrət!
Od saldı yaman könlümə o alma buxaq,
Hardan qoxuyar heyva, yanan, ey afət?!

Olmaz o şəkər tüngü heç ağzın tək dar,
Yox güldə üzüntək belə tər, gülrüxsar.
Qəlbim sənin eşqinlə olub yüz parça,
Kipriklərin etsin ona çarə nə olar?

Duzsan, elə bil, tamam lətafətsən sən.
Tər gül kimisən, bütün təravətsən sən.
Bildim ki, lətafət döşündən əmdin süd,
Peyğəmbər imişsən, necə afətsən sən.

Yalvardım o gün dərziyə, tərpənsən bir!
Allahı sevərsən, aşağı ensən bir!
Dilləndi: – Vüsal qəbamı almırsan sən,
Canla alaram, – dedim, – bəri dönsən bir!

Olmuşdu dünən gecəm tükənməz yəlda,
Qoydu gözümü qəsdən o dilbər yolda.
Tökdüm gecə mən sübhə kimi gözdən dürr,
Qoyma, – dedim, – Allah, məni naçar halda.

Ey türk, sən Allah, məni öz qoynuna çək!
Nolar məni bir ağuşuna al bərk-bərk.
Bir halda ki, işlərim düyün düşmüşdür.
Ey qəmli gözüm, sən də tez ol ağla görək.

Əsdi qara yel, yandı nəsin paltarı,
Yandı bu nəsin nəsliyinə Rum yarı.
Söndürməyə mən şəmi yerimdən durdum,
Gördüm ki, nə şam qalıb, nə də mumları.

Bülbül yenə torpaqda o gün çəng çaldı,
Bərbətlə turac dünən qəlbə od saldı.
Qarğa rübab atmış suya, ey dost, bu gün,
Ney çalmağa, ey qumru, sübhə yel qaldı.

Eşqindən, a torpaq ələyən, soldum mən,
Bir kimsəyə bir söz demədim dərdindən.
Ovcumda qızıl mən səni gəzdim hər gün,
Torpaq ələyib amma zər axtardın sən.

Ey gül, üzünü bəndə kimi yad etsək,
Zülfünlə sənin könlümüzü şad etsək,
Qəm şahmatını oynamışıq biz sənlə,
Könlün gərək incinməyə biz mat etsək.

Olmuş mənə səndən qəmü sevda hasil,
Hicranın əcəb qatil imiş, ey qatil.
Bir öylə gözəlsən ki, sənə söz çatmaz,
Dünyaya gəlib aləmi etdin batil.

Ey can, diləyim ürəyimin dərmanı,
Bağlarda sənin üzün kimi gül hanı?
Çin nəqşi xəcil oldu sənin hüsnündən,
Bir böylə büt olmaz ara, gəz dünyanı.

Mən Məhsətiyəm, hüsnümə yox tay, ortaq,
Olmuş mənə heyran o Xorasanla İraq.
Ey Puri-Xətibi-Gəncə, gəl sən allah,
Qoyma məni ta yandıra odlara fəraq.

Bir gün iki iynəçi çıxıb meydandan,
Getmişdi şaha şikayətə dövrandan.
Əmr eylədi şah dərzilərə Arranda:
“Gah iynəni siz bundan alın, gah ondan!”

Gördüm o gözəl gənci ki, Sərracanda,
Olmaz belə lazımlı onun tək can da.
Yaslarda qalar onun qəmindən insan,
Eşqindən onun min fərəh artar canda.

Zülfündür otuz zənci, sanki sərxoşdur,
Yatmış o otuz gümüşlükdə, bihuşdur.
Ya fil sümüyü, yoxsa gümüşdür boynun?
Alsan da otuz busə sən ondan, xoşdur.

Hər səmtə, gülüm, vurma bu dar meydanda,
Üzdən saçını götür, qalarsan qanda.
Eşqindən əgər iynə qədər od düşsə,
Bir yanda qadın yanar, kişi bir yanda.

Gördüm bacadan dünən gözəl bir oğlan,
Ondan de, gözəllikdən əgər dəm vursan.
Rəhm eyləmədi könlümə o bir zərrə,
Tüstüm bacadan çıxdı, lap oldum heyran.

Getdin içəsən badə, xoş adətdir bu!
Yar olsan əgər, əhdə sədaqətdir bu.
Yoldurdun üzü, aləmə olmuş məlum,
Nə üzlə baxım sənə, nə surətdir bu?!

Əqrəb kimicə canımı zülfün çaldı,
İmanımı ox qəddin əlimdən aldı.
Xəttin, elə bil, buyruğudur şahların,
Yəni ki, təvəkkül bir Allaha qaldı.

Gah fayda görüb gözüm mənim, gah da ziyan,
Alçaq, ya uca, yaxın-uzaq, ya yaddan.
Amma əcəb iş budur, o dost, düşmən tək,
Yaxşı-pisimi söyləyir aşkar-pünhan.

Göstərdi həvəs papaqçı dilbər qəlbən,
Atlas papağa vurdu naxış müstəhsən.
Hər bir naxışa söylədim əhsən min-min,
Hər dördünə ancaq bəsiydi bir əhsən.

Olmuş üzünə qadın, kişi lap heyran,
Dərdindən ürək dərdə düşüb, can viran.
İllərlə atan satdığı hər paltarı
Bir gündə cırar aşiqin, ey yar, asan.

Ədlin bir üzük, bəndinə düşmüş düşmən,
Qoydun göyə nərdiban özün ədlindən.
Hökmün çirişiylə qoy cahan birləşsin,
Əmrin palan, onlar bir ulaq, sahib – sən.

Əsmişdir o gün lalə, gül üstdən yellər,
Torpaqda dünən bitirdi sünbül çöllər.
Abi-həyat içsən, bu gün iç, aldanma;
Odlarda yanarsan sabah, qalar küllər.

Öldürsə bıçaqla kimi yarım hərgah,
Sonra tutar ağzında ləbiylə gah-gah.
Öldürdüyünə bir də bıçaq çəksə əgər,
Öldürdüyü can tapar ləbindən nagah.

Can xəstə düşüb bir toxucu oğlandan,
Zülfündə əsir olub bədən çoxdandan.
Hər dəm ki daraqsız darayar yar zülfü,
Hər ləhzə yanar bağrım ahü-əfğandan.

Durmuşdu dükanda yenə qəssab oğlan,
Səf çəkmiş adamlar yenə sağdan-soldan.
Çəkdikcə əli yanlarına söylərdi:
Əhsən mənə! Olmaz belə buddan, qoldan.

Eşqinlə bu dünya mənə bir cənnətdir,
Qəm şahmatım ancaq üzünə həsrətdir.
Neyçün məni mat xanəsinə salmışsan,
Yoxsa sənə olmaq bu qayda adətdir?

Bir nal götürüb gəldi o nalbənd oğlan,
Nal vurmaq üçün əyildi, qaldım heyran.
Kim gördü bu cür möcüzəni aləmdə,
Vursun hilal at dırnağına bədr olan.

Getdi qanalan yanına o şux həmdəm,
Tutdu qanalan, bağladı möhkəm-möhkəm.
Mərcan, elə bil, sıçradı tər büllurdan,
Neştər damara dəyib onu çərtən dəm.

Gəlmişdi Çegeldən bu gözəl oğlanlar,
Ya Rəb, necə torpaqla yoğrulub onlar?
Əndamı gümüş, ləbləri bal, sözlər qənd,
Ya Rəb, necə yerdən çıxıb bu şux canlar?

Qəlbində soyuq qışdır, üzün gül, nəsrin,
Düşmənlərə sevgi, bizə göstərdin kin.
Yatmış, deyəsən, çoxdan uğursuz tale,
Yoxsa bizə sən bir belə zülm etməzdin.

Yaz vaxtı su üstündən özgə yer seçmə,
Bir yasəmən üz yarın sözündən keçmə.
Ənbər saçını qoxla o yarın daim,
Gül rəng şərabdan kənar nə var, içmə.

İsaya səni and verirəm, ey dilbər,
Gəlsən bizə, qorxudan tamam üz döndər.
Gah nəmli gözümdən yaşı sil, ey tərsa,
Gah-gah ləbimə toxunsun o tər ləblər.

Sürtüb saçına ənbəri, nazlansan sən,
Dünya necə tərsalığa dönməz birdən.?!
Yeddi fələk üstündə gəzirsən sən ki,
Neyçün belə qorxub yanıma gəlmirsən?

Gəl sayma xarabatı oyuncaq, gəlmə,
Əvvəlcə qələndərlik elə, bax, gəlmə.
Hər kim ki gəlib, keçib canından burda,
Candan keçən olmasan get, ancaq gəlmə.

Şadlıq atını sürsən, açarsan meydan,
Sehriylə təbi insanı eylər heyran.
At, fil, ya topu, piyadanı, ya ferzi,
Usta, çevik oynarsan, udarsan asan.

Güldün, çəmənə qırmızı güllər sərdin,
Çovğunlu qışı güllü yaza döndərdin.
Bildin ki, könül verməyəcəm mən güllə,
Xahişə gedib bənövşəni göndərdin.

Könlümdə mənim, ah, ey kələkbaz oğlan,
Qoymuş qəminin quşu bala çoxdandan.
Könlümdəki qıvrılma o zülfündədir,
Aşkardır, ilandan törəyər ancaq ilan.

Könlüm qəminə olmuş əzəldən məskən,
Canda əbədi qəminlə dost oldum mən.
Sevdim canımı, könlümü ondan ötrü,
Var bunda dağın, onda nişan dərdindən.

Olmuş yanağın mişk, saçın qan, ey mah,
Bir söz demərəm dəlilsiz olsam hərgah.
Üz – mişk, hələ nafədə qalmış ancaq,
Zülfün ucu – qan, çıxır nafədən gah-gah.

Şor bəxtim üzündən qanını, ey canan,
Aldatdı əgər tökdüsə zalım dövran.
Gəldin, qisas aldın bu yazıq aşiqdən,
Baxmaqla gözümdən necə gör tökdün qan.

Sevdim səni, gördüm nə qədər kin səndən,
Sanki aradan axan suyam, ey yar, mən.
Ya mən günah etmişəm, tutubdur hirsin,
Ya özgə yarın var, o da gizlin məndən.

Dərdinlə mənim tək, de, yanan harda var?!
Zülmünlə bu cür qəlbi sınan harda var?!
Eşqində təzə peyda olanlar çoxdur,
Əhdində mənim tək dayanan harda var?!

Sənsən dilimin əzbəri, ey yar, hər dəm,
Fikrin gecə-gündüz mənə munis, həmdəm.
Zülm etmə mənə, bir iş çıxardar nagah,
Könlümdəki odlar, ya Xudam, ya naləm.

Mən getdim, ürək çox qalacaqdır burda,
Hər dərdinə həmdərd olacaqdır burda.
Cismim gedir, əvvəlki kimi, qəlb amma
Eşqinlə sənin kam alacaqdır burda.

Ollam bu zəiflikdən elə mən pünhan,
Qallam, nə qədər desən, gözündən pünhan.
Cismim əriyib, bircə dəfə ah çəksəm,
Ahla gedərəm ərşə özümdən pünhan.

Ağzın, gözün, ey lalə üzlü, şux, göyçək,
Almış elə bil, püstə, badamdan örnək.
Bir gör nə kiçikdir gözünlə ağzın ki,
Sığmaz buna yaş tökmək, ona bir gülmək.

Sevdik nə kilim biz, nə də ki səccadə,
Cəlb etdi bizi təkcə xarabat, badə.
İçmir şərabı, badəni qorxur qazi,
Xoşdur ona da yetim malı dünyadə.

Yoxdur qanadım, mən yazıq, aciz bir quş,
Düşdüm toruna sənin xəbərsiz, bihuş.
Dağlardan ağır bir qəmə düşmüş könlüm,
Hər yerdə işim ah ilə əfğan olmuş.

Yandım nə qədər qəmindən, ey qəssab, mən,
Dəysin sümüyə bıçaq, – dedim, – qoy birdən.
Satmaq sənə öldürdüyünü adətdir,
Satma məni öldürsən əgər, nolar sən.

Ey qumru kimi sevgiyə yad dilbər sən,
Tavus quşunu hüsn ilə mat eylərsən.
Köksümdən uçar ürək göyərçinlər tək,
Kəklik kimi sən əgər qapımdan girsən.

Rəhm eylə, deyin hamamçı getsin tezdən,
Yatsın bu gecə, arxayın olsun bizdən.
Tezdən tələsik durram, obaşdan gəlləm,
Qəlbimdən ocaq, bollu su verrəm gözdən.

Meyxanada bütlərlə təhiyyat xoşdur,
Pudluq qədəh əllərdə münacat xoşdur.
Təsbihlə riyakarlıq etmək iyrəncdir,
Zünnar ola əynində, xarabat xoşdur.

Qəlbimdəki oddan zəmanə – atəşgah!
Çox köhnə olar dünya vücudumdan, ah!
Qardaşlarımın torpağı üstdən çıxmış
Bir kuzə su içsək, məsələn, biz hərgah.

Ey çərxi fələk, aləmi viran etdin,
Zülmünlə cahan mülkünü talan etdin.
Yarsaq sinəni sənin əgər, ey torpaq,
Görrük, necə gövhərlər udub qan etdin.

Bir halda ki, görmədim sədaqət səndən,
Bəsdir nə gərək giley, şikayət səndən.
Dünyada sənə bir görünür düşmən, dost,
Get, get, nə gərək edim hekayət səndən.

Etdim nə günah, sən mənə göstərdin kin,
Neyçün bu qədər zülm, əziyyət verdin?
Olmuşdur olan, rəhm elə bundan sonra,
Qan tökmə, yetər, bir suçu yoxdur qəlbin.

Ancaq gül üzünlə ürəyim, bil, şəndir,
Olsan harada, ora mənə gülşəndir.
Bir tək ki, o cütdür, o kaman qaşlardır,
Bir cüt ki, o təkdir, o boyun, kölgəndir.

Qoymuş qapıya bir kötük o qəssab yar,
Hər gün kötük üstündə təzə bir qan var.
Töksən qanımı, burda qoyar kim qiymət,
Bir arpaya dəymirsə burda çox qanlar.

Gəldim evinə, gördüm o dövlət yoxdur,
Könlüm diləyən bir adi sərvət yoxdur.
Hər şey burada bolca, deyirsən, vardır,
Vardır orada hər şey, o nemət yoxdur.

Olsan qoca, bir yerdə bizi kim saxlar?
Qəmlər dolu evlərdə bizi kim saxlar?
Zəncir kimidir zülfüm, özün bax, ey şeyx,
Burda daha zəncirdə bizi kim saxlar.

Bir huri səbuh vaxtı gəlsə sübh erkən,
Versə mənə badəylə dolu cam birdən,
Hərçənd bu cür söz mənə olmaz layiq:
İtdən də pisəm, cənnəti yad etsəm mən.

Yarın üzünə istədi bu kəc dövran
Məhv etməyə o hüsnü yaza bir fərman,
Duydu elə bil fikrini çərxin əvvəl,
Getdi daha tez cənnətə o şux canan.

Dost oldu, budur, çıxdı buxaqdan saqqal,
Barmaq qıcadı üzə uzaqdan saqqal.
Saqqal çıxarıb sonra da yoldun, bildim,
Yoxsa hara bəs getdi nahaqdan saqqal.

Əfsus, gülün üstündə tikanlar bitdi,
Bir qarğa sənin laləni talan etdi,
Aldı qələmi gümüş zənəxdan, ey yar,
Ləli-ləbini qaraldıb o incitdi.

Yatdım gecələr naz ilə, onlar getdi,
Qəmzəmlə o dürr deşdiyim anlar getdi.
Oldun canıma, könlümə munis, həmdəm,
Getdin, beləcə o xoş zamanlar getdi.

Öz dayəsinə dünən o nadir dilbər,
Ərz eylədi gövhər kimi çox xoş sözlər.
Ərz etdi filan kamına yetsin, ya yox,
Lal olsun onu, söylədi: – Yox! Yox! – əzbər.

Yandı ürək odlarda o gün çox pünhan.
Yellər də dedi dünən gözəl bir dastan!
Hər kim ki bu gün üzündə vardır bir su,
Torpaqda yatar sabah, çıxar meydandan.

Oynaq yerişin, gəzməyinə mən qurban,
Olsun o zərif paltarına qurban can.
Mümkünmü rəqib olmayanda kuyində
Bir busə alım, ey yar, ayaqlarından.

Dünyada daraq, daş kimi versən fərman,
Ləlinlə desən bircə dəfə, ey canan,
Zülfündə əlim, inan, olar yüz barmaq,
Min ləblə öpər ləbim ayaqlarından.

Göydə günə, yəni üzünə and olsun!
Mişkin saçının gündüzünə and olsun!
Gözdən su verib suvarram, ey can, könlü,
Təkcə o sənindir, özünə and olsun!

Könlüm sitəm oxlarına oxdan olsun,
Daim yaşayan sən kimi canan olsun.
Can verdi könül qapında yüz şadlıqla,
Rəhmət deməyə barı bir insan olsun.

Rindlərlə xarabat tapa daim ziynət,
Yandırsın oda zahidi hər qəm, möhnət.
Bir dürd içənin qalsın ayaq altında
Sufi geyinən cındır, o yun göy xələt.

Hər yerdə sən ol könlümə, ey gül, həmdəm,
Yaqut ləbinə dəyməyə dünya bir dəm.
Hansı gecə sən yanımda olsan, ey yar,
Ta məhşərəcən olmaya gündüz aləm.

Ey yel, dilinə sənin fəda olsun can,
Görsən sən əgər yarımı, getsən burdan,
Tez Məhsətini, söylə ki, gördüm yolda,
Dərdinlə sənin edirdi o, can qurban.

Xəttin sənin, ey gül, bol oldu ta yundan,
Artıq yanağın könlümü etməz heyran.
Şaftaluna meyl eyləmərəm mən bir də,
Düşmüş yanağın yun səbətə, ey canan!

Daim bu düşüncəylə olur qəlbim qan,
Çoxmu qoyacaqdır bizi nakam dövran.
Lütfün mənə çoxmu olacaq hər gün kəm,
Eşqim mənim artacaq sənə, ey canan.

Ceyran Çini öz mişkinə qəltan eylər,
Ətriylə saçın mişki peşiman eylər.
Dərdinlə sənin bir gecə kim yar oldu,
Ta sübhə qədər ah ilə əfğan eylər.

Bəxt atına vurmuş yəhər, ey şah, dövran,
Tutmuş səni üstün o bütün şahlardan.
Zər nallı atın gəzməyə ta torpaqda,
Örtündü gümüş örpəyə, bir bax, hər yan.

Artıq nə deyim mən, iştiyaqın nə edib?!
Hiylən, yalanın, riyan, nifaqın nə edib?!
Zülfün kimi bir uzun gecə lazımdır,
Bir-bir sənə söyləyim fəraqın nə edib!

Yarım papağı tikir nə şirin-şirin!
Hər kim onu görsə, deyər, əhsən min-min.
Hər gün bəzər atlas papağı ləl ilə,
Üstündəki saplar gümüşü, ya zərrin.

Ey şah, sənə məndən bu səna bəsdir, bəs!
Aciz qarıdan sənə dua bəsdir, bəs!
Mən ki deyiləm öküz, nə lazım buynuz,
Olsam, iki buynuz da daha bəsdir, bəs!

Çəksən yayı, öz çiyninə güc versən sən,
Ağzından öpür ox necə bir görsən sən.
Sanki kirişi mənim sözümdən hördün,
Çatmır qulağa, hər necə, istərsən sən.

Əldən, nə deyim, gör necə varım getdi,
Yəni qaçıb o zülfü xumarım getdi.
Qoydum ələ mən həna nigarım görsün,
Yatdım durub əldən o nigarım getdi.

Çıxmışdır üzündən daha dildarın xət,
Sanma azalıb ondakı o hüsn, əlbət.
Əvvəl üzünün bağında güllər vardı,
Verdi ona burdan da göy otlar ziynət.

Çatdıqca gücü, fikri budur kəc dövran,
Qoysun məni nakam, eləsin hey divan.
Əhd etdi fələklər yerin ətrafında
Fırlatsın özüylə məni nalan-nalan.

Şahlar hamı məclisdə içərlər badə,
Çəngi, neyi hər dəmdə salarlar yadə.
Şadlıq sevər əllərim, onu, ey şah, sən
Gəl saxlama göndə, zərə tut dünyadə.

Olmuş biləyin gör necə yumşaq yun tək,
Dünyada kim istər belə yundan dönmək.
Yundan geyiniblər bu gözəl oğlanlar,
Quyruq da geyər əyninə yundan köynək.

Mən söylədim: – Ey gül, mənə tez mey ver gəl,
Dilləndi, dedi: – Adna günü bir dincəl.
– Güllər gələn il açar, – dedim mən, – bir də
Hər həftədə bir adna var, açma əngəl.

Qəlbində küfr var, nə namaz, ya iman?
Keçmiş bu zəhər cana, nə eylər dərman?
Hər yerdə tanıtdın özünü sən zahid,
Çirkindisə nəfsin, bu xeyir verməz, qan!

Daim tökülər qəminlə gözdən yaşlar,
Ey mehrini məndən kəsən, nə qəsdi var?
Hörmətlə yanaş, bu qanlı yaş – bir karvan,
Gəlmişdir ürək kəbəsindən, ey dildar!

Gördü gözünü gözüm, gözü bərk açdı,
Gen düşdü gözün, yuxum gözümdən qaçdı.
Nur tapdı gözündən nə qədər göz varsa,
Görməz belə göz gözüm, bu nə göz-qaşdı?

Bütdürsə üzün, bütə gətirrəm iman,
Mey versən əgər, xoşdur o məstlik, canan,
Eşqinlə sənin ondan ötrü oldum yox,
Xoşdur mənə bu min dəfə var olmaqdan.

Ləlindən eşitdim nə qədər xoş söhbət,
Oldu mənə axır bu görüşmək qismət.
Dürr danəsi var, deyən, qulaqlarında,
Gözdən tökülən yaşımdır o dürr, əlbət!

Könlüm diləyir ki, düşə fürsət birdən,
Ta söhbət açam qəlbi yaxan qəmlərdən.
Bilməm o zaman hər yaramaz alçaqlar
Göydənmi yağır, ya cücərirlər yerdən.

Qəsdin səfər etməksə, dayan, ey sarvan,
Rədd etmə, keçib getmə, aman, ey sarvan.
Hərçənd dəvə yük daşıyır, amma sən,
Qəm yüklə aparram mən, inan, ey sarvan.

Göylərdə min illərlə günəş dövr eylər,
Bir kan zər olar, o ya ki bir kan gövhər,
Tək bircə sözünlə əlim, ovcum, ey şah,
Olmuş, düzü, gövhər kanı, həm, bir bax, zər.

Ey Puri-Xətib, dinlə öyüd gəl hərdən,
Şadlıqla mey iç badə dolu sağərdən.
Allah da qaçır itaətdən, üsyandan.
Dünyada kam al badə ilə dilbərdən.

Sərməst düşüb yolda o gün gördüm yar,
Çökdüm yerə, tutdum əlini mən naçar.
Düşmür bu gün onlar yadına heç yarın,
Yəni "xəbərim yoxdu" – deyir, lakin var.

O hüsn, gözəllik nədir, o hiylə, kələk,
Aşiqlərə çatdıqca gücü zülm etmək?
Naz-qəmzəsinin həddi-hüdudu yoxdur,
Saqqalla, ey Allah, Sən ona xəncər çək.

Yalvardım ona yolda tutub bir gün mən,
Tər basdı xəcalətdən onu, bax, birdən.
Lütf ilə bu solğun üzümə bir güldü,
Əks oldu üzüm dişində əhsən, əhsən!

Getdi o gedən, başda xumarım qaldı,
Könlümdə nə səbrim, nə qərarım qaldı
Fikrimdə dedim ki, gələcək yar mütləq,
Sanki nə gedib, nə intizarım qaldı.

Ey xaslara fitnə, el üçün bir afət,
Göylər də günəş üzünə eylər heyrət.
Çıxsan dama Bəlx ellərində, ey ay, sən,
Şamda quyuda qəsəb gəzər kor, əlbət.

Ləlindən öpüb sonra sormaq arzumdur.
Sənlə mey içib badə vurmaq arzumdur.
Sərxoş da mən olsam, xumar da, huşyar da,
Çənginlə oturmaq, oturmaq arzumdur.

Qazdım nə qədər arx üzümdə dırnaqla,
Gözdən mən ora su bağladım şırnaqla.
Bir müddət üzüm susuz qalıb yanmışdı,
Bol-bol su axıtdım üzümü cırmaqla.

Dur, gəl, nə gözəl hücrəyə sahman verdim,
Məclis bəzədim, səndən ötrü can verdim.
Dur gəl ki, şərab ilə kababım vardır,
Qəlbimlə gözümdən onu, ey can, verdim.

# *II bölmə*

Kişi öl, əgər sən qadın deyilsən,
Bir an oxşamazsan başımı nədən?
Zər verər busəmə dünya şahları,
Zərsiz sən bir busə almazsan məndən!

Görüşdə şəftəli bir bəhanədir,
Alma, üzüm, duzlu püstə, de, nədir?
Narım, alça olma, badam gözlərim
Üzüm giləsi tək yaş tökər bir-bir.

Hər iki dünyanın kərimi Sənsən,
Qocaya, cavana kömək edənsən!
Sənin rəhmətinə əminik, Allah,
Könlümüz şad olur sənin feyzindən.

Məni kam almağa qoymadı zaman,
Gücü çatan qədər elədi divan.
Deyəsən əhd etmiş, dolandıqca hey
Məni də özüylə hərlətsin dövran.

Xidmətdən qovulmuş bir kəsdir ürək,
Adın-sanın yoxsa, həyatdan əl çək.
Bu dünya elə bir karvansaradır
Ki, qara pula da dəyməzmiş, gerçək.

Qəlbinə eşqdən söz yazan bir kəs
Bir ləhzə ömrünə puç deyə bilməz,
Bir həmdəm aradıq ömrümüz boyu,
Bizə həmdəm oldu yanıq bir nəfəs.

Eşqin mənbərinə çıxandan ki biz
Eşqdən başqa söz bilmədik hərgiz.
Bizim bu mənzilə ayaq qoymasın
Eşq ilə yanmayan, buz kimi hissiz.

Aşiqlər evinin dərvazəsi, bil,
Olmuş çoxdan bəri bizim bu mənzil.
Məhsulumuz qəmdir, bihuşuq müdam,
Şadlıq bu xanənin qonağı deyil.

Özgədən heç zaman gözləmə kömək,
Quru budaq kölgə salmaz, ey ürək!
Qənaət əzizlər, tamah xar edər,
Az olan şeylərə qənaət gərək.

Başqa mədəndəndir eşqin gövhəri,
Seçmişlər aşiqlər bir özgə yeri.
Eşq dəni yeyən quşun yuvası
Bir yerdir bu iki dünyadan qeyri.

Bir qəlp pulu bizdən almırlar, inan!
Süpürər hamını əcəl dünyadan.
Xərabatdan çıxıb dedi bir qoca:
"Şad yaşa, torpaqda çox yatacaqsan".

Dad ürək əlindən, dad eşq əlindən,
Çoxlarıdək düşdüm bu möhnətə mən.
Ürəkdir səbəbi bu ahü-zarın,
Dad ürək əlindən, dad eşq əlindən,

Ey ürək! Ömrünü vermisən badə,
Gülüb yetməmisən kamə, muradə.
Kimsə yetişmədi dadıma, heyhat!
Mən sənin əlindən gəldim fəryadə.

Qəminlə ürəkdə qalmamış həvəs,
Cavanlıq şövqü də keçəcək əbəs.
Eşqin bir ölümdür, qalmışdır yalnız,
Yaşamaq adıyla bir quru nəfəs.

Xalqın başında gər olsan da bir tac,
Ağladar səni də bir gün ehtiyac.
Xalqın dərdinə qal, ona yaxın ol,
Qorx o gündən özün olasan möhtac.

Bu dünya bir qızıl kuzəyə bənzər,
Suyu gah şirindir, gah da ki zəhər.
Çox da öyünmə ki, uzundur ömrün,
Əcəl köhlənində hazırdır yəhər.

Havada, səhrada olan toz, torpaq
Keyqubad, Firidun torpağıdır, bax!
Fələyin təknəsi deyil bu dünya,
O bir qan teştidir, qan tası ancaq.

Qoca bir guşədə əlində badə,
İçib ağlayırdı, gəlirdi dadə:
– Tövbəni kim pozdu, ya Rəb, mənəmsə,
Barı Sən rəhmini pozma dünyadə!

Qızıl dedi: "Mənəm hər günə gərək,
Duz kimi möhtacdır mənə hər xörək.
Məni ölü kimi basdırmayın siz,
Həyat üçün mənəm ən yaxın kömək".

Nəmli gözlərimdən axan gilələr
Xəncərdən damlayan al qana bənzər.
Qəlbim kabab olmuş, tökür qanlı su.
Kababdan qanlı su damlamaz məgər?!

Hünərin səfası acıdır müdam,
Odur, hünər suyu içmir bir adam.
Alçaq adamların cəhalət odu
Hünəri küləyə vermişdir tamam.

Sənə qismət olsa beş gün bu həyat,
Öz könlünlə yaşa, qəlbini yaşat...
Həmnəfəs axtarma, üzlətə çəkil,
Həmnəfəs aynanı pasladır, heyhat!

Mən ki çöldə bitən bir otam, ey mah.
Nə suyum var mənim, nə taleyim, ah!..
Nəsihət əbəsdir; qızıl teşt içrə
Kəsilmiş bir başın nə xeyri, eyvah!

Boy-buxunu, çiyni nöqsanlıdan dad,
Namərd kişilərdən yaxşıdır arvad.
Bivəfa dostlardan düşmən yaxşıdır,
Etibarsız dostu yadından çıxart.

Şam başından yanar, göz yaşı tökər,
Gəldiyi qapıdan o çıxıb gedər.
Başınla öyünmə, şamə diqqət et,
Məhv olur başıyla ayağa qədər.

Nədən səni belə yandırdılar, şam,
Yoldan çıxartdılar burda bir axşam?
Sən özün dilə gəl, neyləsin, əgər
Yaranmışsa ancaq yanmaqçün adam?!

Olursa Misir, Rum, Çin sənin, ancaq
Bil ki, bütün dünya sənin olacaq.
Kefini kök saxla, çünki son qismət
On arşın kəfəndir, üç arşın torpaq!

Buludla çarpışan görürəm səni,
Günəşi arayan görürəm səni.
Bu göz bəbəyimdə varsansa, neçün
Suya qərq olmuşsan, görürəm səni.

Qəminin eşqilə cahana gəldim,
Canımı eşqinə qurbana gəldim.
Bu könlüm qəminin məkanıdır, yar,
Qəmini çəkdikcə mən cana gəldim.

Ey dost, məhəbbətin ömrə duzaqdır,
Arzum istəyindir, bu sözüm haqdır!
Aldı qərarımı sifarişlərin,
Səbir dedikləri məndən uzaqdır.

Xərabatdan çıxan bir ay ucaldı,
Fələyin damında bir çadır saldı.
Qəflətən ucaldı Hatifdən bir səs:
"Bu dünya bir saman çöpünə dəyməz!"

Könülsüz Xərabat içrə sən gəlmə,
Dərvişlik rəmzini bilməsən, gəlmə!
Başından keçənin yoludur bu yol,
Bu yolda can qurban verməsən, gəlmə!

Xərabat – yeridir igid ərlərin,
Burda yeri yoxdur bədgövhərlərin,
Hörmətlə qədəm qoy bu yola, çünki
Yeri deyil bura hiyləgərlərin.

Sən, ey işvəsiylə gözəl görünən,
Əyləş, acıqlanma, əl çək fitnədən.
Əyridir vədin də qaşların kimi,
Əysən də bu camı, gəl dağıtma sən!

Gözlərimdən qan-yaş axıtdım dünən,
Göylərə sovurdum torpaqları mən.
Kimin duasıdır, bilmirəm, ey dost,
Ki, ölmədim sənin dərya qəmindən.

İqbal gəlib bu gün kaşanəmizə,
Dünya deyir indi: bir qulam sizə,
Dövlət ki, ağıllı axtarar daim,
İndi köməkçidir taleyimizə.

Arvadla kişini bağlayar kəbin,
Bu işə yol verir şəriət, ayin.
Mənimsə kəbinim bir rübaidir,
Varmı bu kəbinə yol verən bir din?

Daşda od olsan da, ey saqi, əgər,
Əcəl suyu səni bir gün söndürər.
Bu dünya torpaqdır, mütrüb, qəzəl de,
Saqi, nəfəs yeldir, badə ver, yetər!

Bütpərəstlik xoşdur, sən bir büt olsan,
Məstlik xoşdur, şərab versən camından.
Elə yox oldum ki, eşqində sənin,
Bu yoxluq varlıqdan yaxşıdır, inan.

O dərya təbinlə bəhsə girərək,
İstəsən lovğalıq etməsin fələk,
Lütf-kərəm qılıb buyur saqiyə,
Sənin piyaləni doldursun tək-tək.

Ürəyim doludur eşqinlə, nə qəm!
Bir sözlə bu halı deyə bilmərəm.
Sıxılır ürəyim, yox taqət, saqi,
Bihuşluq daha xoş deyilmi bu dəm?

Qəmlə dost elədi camalın məni,
Qızıl tək saraltdı xəyalın məni.
Səninlə içərəm şərabı ancaq,
Əbədi məst edər vüsalın məni.

Camalın nur saçır bizə biqərar,
Hara getsəm, qəlbim sənə can atar.
Kənizin əlindən badəni al iç,
Qəlbimdə hər zaman sənin ətrin var.

Əlimdə qədəhlə sənin küçəndən
Hər gecə, sevgilim, sərxoş keçdim mən,
Eşqi şərab kimi tökdüm qədəhə,
Huşa getdim, düşüb sındı əlimdən.

Gözəl, bax, bir mənəm, bir sən, nə xoş hal!
Nuş edək şərabı, coşsun cah-cəlal.
Gecə yar zülfü tək uzansın, fələk!
Sübhün açarını sən quyuya, sal!

Dur çəngi dindirək, bir ülfət qataq,
Şərab içək, utancaqlığı ataq.
Hiylə şişəsini çalıb daşlara,
Canamazı bir cam şəraba sataq.

Dedim: məsləhət ver bizə, ey ürək!
Şirin meydən içək, acıdan içək?
Dedi: acıdan iç, yoxsa Şirinə
Vurğun deyilsən ki, sən də Fərhad tək.

Doyunca mey içən dolaşar çılpaq,
Keçinər dünyada bir dəlisayaq.
Əfi düşmənlərim kor olsun deyə,
Bu yaqut şərabı içirəm ancaq.

Laləni süsləmək vaxtıdır tamam,
Gül üstə, ey xacə, gəl qaldıraq cam;
Dəftəri sataraq, şərab nuş edək,
Gəlib mədrəsədə quraq intizam.

Meyxanə önündə xumar gözlərin
Dün müjdə verirdi aşiqə min-min.
Zülfünə fərman ver, ağır zəncirdən
Xilas etsin canın bu divanənin!

Qatırı satmaqçün tövləyə girdin,
Qızıl tapmaq üçün onu itirdin.
Sat, yenə o pulu sərf et məclisə,
İçək, ta deməyək zərər gətirdin.

Əlimdə qızıl pul, qızıl tək üzüm,
Xərabata girdim cürətlə özüm.
Xərabat şagirdi qovladı məni,
Söyləyin, bu hala mən necə dözüm?

Sənə dəm verirəm gül dodağımdan,
Qara zülflərimdən, şux yanağımdan.
Məst, ayıq, ya xumar rəqs eləyirəm,
Çəng çalıram sənin qarşında hər an.

Mən tikansız, təzə, ətirli güləm,
Qəmlərini çəkən şeyda bülbüləm.
Şahların qolunda oturan qırğı
Düşmüşdür toruna, eyləmə sitəm!

Ayla Zöhrə kimi üzünlə gözün,
Yusiflə quyu tək xalınla üzün;
Sən buğdayı, mənsə samantək sarı,
Samansız buğda heç gördünmü özün?

Zülfün camalına bir yaraşıqdır,
Xərabat əhlinə nurdur, işıqdır.
Ey Şərq günəşinin nuru, xoş gəldin!
Gözəllər şahına qapı açıqdır.

Bizi nə ox gücü bir an saxlayar,
Nə də kədər dolu quru dörd divar.
Zülflərin boynunda zəncir olanı
Zəncirlə evdə heç bənd etmək olar?

Öldürüb bir kəsi bıçaqla əgər,
O şirin ləbində tutsan bir qədər,
Sonra o bıçağı vursan ölüyə,
Dodağın zövqündən ölü dirilər.

Bir busə ver mənə qənd ləblərindən,
Bir yox, iki, üç, dörd, beşini ver sən,
Altı, yeddi, səkkiz, doqquzunu ver,
Sonra da on busə lütf eylə birdən.

O mim ləbindədir bu dodaqlarım,
O gümüş qoynundur güllü baharım...
İki ayrı canda bir ürəyik biz,
Bilirəm qədrini, nadir mirvarım!

Canan, ağzın kimi ürəyim təngdir,
Bəxtim zülfün kimi qapqara rəngdir;
Hanı üzündəki o ay, o günəş,
Qəmindən bükülmüş tənim xərçəngdir…

Məni dodağınla satın al, canan?
Məkkə qapısına apar, et qurban.
Günahım var isə, qoy zindan olsun
Mən tək günahkara çahi-zənəxdan.

Məni sevirmişsən doğrudan, ey yar!
Qoymursan gözündən bircə an, ey yar!
Zarafat eyləyib bir yalan dedim,
Nə yaxşı onu da duymusan, ey yar!

Başımı yolunda qurban da versəm,
Eşqindən bu könül ayrılmaz bir dəm.
Bir gün görəcəksən ki, sənin, sənin,
Sənin ayağına düşüb ölmüşəm.

Çənənin quyusu zindandır mənə,
Camalın Kəbə tək məkandır mənə,
O kafir zülfünün qıvrımları, yar,
Çoxdandır mayeyi - imandır mənə...

Yarın damarını çərtəndə, aman,
Diqqət et, incitmə sən, ey qanalan!
Qoluna vurduğun hər bir neştərin
Ucu ürəyimə sancılır, inan!

Qəlbim yaralıdır, rəhm elə, ey yar,
Qalmadı könlümdə bir səbrü-qərar.
Bir anlıq vəsl üçün təsəlli ver ki,
Nə başqa bir arzum, nə ümidim var.

Acıqlanma, – dedi, – ey yar, bu gecə,
Dinlə nəsihəti, dildar, bu gecə!
Açaram qoynumu sənə, səbir elə,
Gəl qisas axtarma, zinhar, bu gecə!

Sən arx kənarında məst oturmusan,
Ey sərv qamətli, ayüzlü canan!
Kuzəylə yanına gəlirəm, sanma,
Mən su doldurmağa gəlirəm arxdan.

Könlümə yar oldu bu gecə dilbər,
Yalqız gecələrdən şikayət eylər.
Ey gecə, kədərim olsan da, getmə,
Səadət də olsan, gəlmə, ey səhər!

Bu gecə yola gəl, rəhm elə, canan,
Mən yanıran, sən də bu atəşlə yan,
Zülfünün ucuyla qaldır yanğını,
O da bu gecə tək uzundur, aman!

Ömrün bu dünyada əbədi olsun,
Könlün səadətlə, şadlıqla dolsun.
Sənin istəyinə uymayan başlar
Sürahı başıtək bədənsiz qalsın.

Saçların ətrafa xoş ətir saçar,
Səhər yeli onu vurub dağıdar.
Qolunu boynumda görsə bir zahid,
Heç ola bilərmi o, bir də dindar?!

De, hardan gəlirsən, ey rahəti-can,
Gözlərimin nuru, sevgili canan?
Səninlə mey içim, – dedin, – bu səhər,
Ey səhər munisim, gəl, gəl, hardasan?!

Bu vüsal gecəsi amandır, yatma!
Murada yetməyə zamandır,yatma!
Xumar gözlərini qapama, ey yar!
Bu, ələ düşməyən bir andır, yatma!.

Hələ mey var ikən, ey nigar, yatma,
Busəsiz qalarsa dodaqlar, yatma!
Gecə qaranlıqdır, badələr aydın,
Xəlvət bir guşədir, mey də var, yatma.

O gül dodaqların səpəndə şəkər,
Can quşu qəfəsdə çırpınmaq istər.
Gəl günah işləyək bal dodağınla,
Kafərsən bu işi rədd etsən əgər.

İş sənin deyilsə, bitməsin bir an,
Sənə qurban olsun bu dövlət, bu can.
Qəmindən başqa bir arzumuz varsa,
Qızıl tək əritsin qoy məni hicran.

Yarın barmağında üzük olaydım,
Onun əllərində kaş ki solaydım!
Ox atanda məni düzəldə idi,
O gül dodağından öpüş alaydım.

Səndə rahatlanır bütün yaranan,
Yox, məşuq demirəm, sən bir məbudsan!
Qəzəldə xəttüxal adını çəksəm,
Bəhanədir, qəsdim tək sənsən, inan!

Keyf əhli təzədən işrətə başlar,
Keyf edər əldə cam, qabağında yar.
Bəxşayiş verməyi öyrənər səndən
Məclisdə piyalə qaldıran şahlar.

Dedim: “Bir gəl”. Dedi: “Hara deyirsən?”
Dedim: “Qucağıma”. Söylədi: “Əhsən!”
Dedim: “Gəl mey içək”. Dedi: “İkimiz”.
Keçmək olarmı heç belə dilbərdən?..

Gəl qoy dodağını dodağıma, yar,
Sən məni yenidən həyata qaytar.
Eşqindən o qədər məst olmuşam ki,
Neyləsən, bilmərəm dünyada nə var.

Bir nar gülü kimi yanırsan, canan,
Kənara çəkirsən özünü xalqdan.
Yandırıb qolunu bir yar eşqinə.
Olmusan, de, hansı vüsala qurban?

Könlümə yar oldu bu gecə dilbər,
Bu gecə sevgilim nəvaziş eylər.
Mən bu parlaq şamı aldım əlimə,
Nə olar, ey gecə, gəlməsin səhər.

O günəşüzlüyə olummu heyran,
Yoxsa kam alımmı qara saçlardan?
Lətifdir, gözəldir bütün hər yeri,
Axı harasına bənd olsun insan?!

Qarışqa yol salar şəkər üzünə,
Söykənər laləyə bənövşə yenə,
O gümüş üzündən bir xəncər çıxar,
Vurar bu dünyanı biri-birinə.

Ey dost, o qəmzəndir belə can alan,
Saçların tər-təzə, qaşların kaman.
O çəmən sərvinə səcdə edənlər,
Dad edər o uca boyundan, aman!

Gül dedi: "Gözümü açmamış hələ,
Səadət bağından dərməmiş gilə,
Gülab çəkmək üçün dərdilər məni,
Görüm o əllər də kəsilsin belə!"

Yaşıl otlar üstə cilvələnir gül,
Bülbül şurə gəlib açır şirin dil.
Onlar hər ikisi heyran olmuşlar:
Gul gödək ömrünə, təkliyə bülbül.

Sənə həsəd edir yasəmən, gözəl,
Ey nazı min fitnə eyləyən gözəl!
Yolunun üstündə bir çeşmə gördüm
Ki, suyu axmada gözümdən, gözəl!

Hər məclis çiçəklə, güllə bəzənər,
Köynəyi cırılmış uşağa bənzər.
Tərləyib qızarmış, həyalı qönçə
Ağzında tutmuşdur, sanki, simü-zər.

Şahlar sevincinə xəbərsən, ey gül!
Bülbülə ilhamsan, hünərsən, ey gül!
Bu lətif hüsnünlə, qorxuram ki, sən.
Sərxoş ayaqlara düşərsən, ey gül!

Gül üzdən niqabı aç gül əyyamı,
Doldur gül fəslində şərabla camı.
Sən kimi yar ilə səhər mey içən
Aşiqin gül vaxtı coşar ilhamı.

Toxunma könlünə biçarə gülün,
İncitmə qəlbini avarə gülün.
Səbanın eşqiylə olmuşdur, ey dost,
O qanlı köynəyi sədparə gülün.

Gül yola baxırdı, rəngi solmuşdu,
Bülbülün eşqiylə gözü dolmuşdu.
Bayaq bəzəndiyi yaşıl paltarı
İndi parçalayıb dəli olmuşdu.

Gülə mənzil olmuş yenə də çəmən,
Köynəyi yırtılmış ta ətəyindən.
Dedim: Kim yırtmışdır səbir pərdəni? –
Qalxıb səhər yeli söylədi ki: “Mən”.

Sübhün o müşk iyli yüngül nəfəsi
Toxunduqca gülə, gəlir həvəsi.
Gülür təzə-təzə bahar buludu,
Qalxdıqca bülbülün ahü-naləsi.

Bağ alışıb yandı qırmızı güldən,
Bir gül köynəyidir ömrümüz həmən;
Əcəlin küləyi yırtmamış onu,
Gül ilə badəni buraxma əldən.

Gül dedi: “Bir sərv qamətli əgər
Olsa, gözəl bağı bir cənnət edər”.
Meh tənə vurdu ki: “Qonşun tikandı,
Qonşudur çirkinlə daim gözəllər”.

Ey rəngi şəftəli gülü tək olan,
Dodağının ətri dərdlərə dərman!
Çənənin altında bir bağça gördüm,
Şəftəli istərəm mən o bağçadan.

Üzünün rəngidir gülün üzarı,
Gülə bəzək et sən o gur saçları,
Dur bağa çıx, sənsiz güldə səfa yox,
Sərvin kölgəsində ətir saç barı.

Mən, ey Xətiboğlu, sənə cananam,
Bil, ölüncə sənə sadiq insanam,
Ölməyə hazırdır yolunda çoxu,
Mənsə istəyirəm eşqinlə yanam.

Yetməzmi qəribə verdin işkəncə,
Cəfanın hüdudu olmazmı, səncə?!
Demişdin: Gəncədə kamə yetərsən,
İndi bu mən, bu sən, bax, bu da Gəncə!

Gümüş bəxş edərəm Hatəm tək hər an,
Hədiyyə verərəm Çini də, canan!
Sərxoşkən iki min Xətiboğlunu
Verərəm bir şirin nəğməyə qurban.

Heç doymazsan, oğlan, dodağımdan sən,
Sonra bu payı da məndən görməzsən,
Mən sənin xəstənəm, ey Xətiboğlu,
Nədən bu dərdimə dərman verməzsən?!

Ey gözəl, əlindən tutduğum zaman,
Səadət mülküdür elə bil cahan.
Gəl, ey Xətib oğlu, bu vüsalə sən
Bir şeir söylə ki, rahət olsun can.

Sənə çox yaraşır bu xoş lətafət,
Gəl yanımda otur, ey hurisifət!
Gəncə Xətibinin xudpəsənd oğlu,
Gəl, bu zahidlikdən bari tövbə et!

Şəhər tamaşana çıxıbdır, oğlan,
Zülmündən qorxaraq baxır uzaqdan.
Hər paltarı bir il geyib yırtanlar,
Eşqindən bir gündə dağıdır, inan!

Qalx, ey ikiüzlü, işvəkar oğlan,
Bütün əməlləri fitnəkar oğlan!
Verdiyin vədini üzüm suyu tək
Qədəhdən tökmə sən, eylə ar, oğlan!

Qurudu dodağım, qurudu gözüm,
O zalım oxuna mən necə dözüm?!
Eşqinin odunda su tək əridim,
Sonra öz suyumda qərq oldum özüm.

Vüsalınla dolu gecələr getdi,
Kirpiyimdən düşən incilər getdi.
Ürək rahətliyim, munisim, hər şey
Sən getdin, səninlə bərabər getdi.

Necə deyim eşqin nə cəfa verdi,
Ürəyin mənə nə vəfa göstərdi.
Gecə zülfün kimi uzun olaydı,
Deyəydim hicrində çəkdiyim dərdi.

Ey dost, qəmlə keçir sənsiz hər gecəm,
Yandırır yuxusuz gözlərimi nəm.
Zulfüntək qarışar yuxularım da,
Nərgizlərin kimi yuxuya getsəm.

Bilirdim, vəfadan xeyli uzaqsan,
Bilirdim, əhdini sındıracaqsan.
Axırda etdiyin düşmənçiliyi,
Əvvəldən mən yaxşı bilirdim, inan.

Neyləyim, eşqinlə xərabəm, məstəm,
Ciyərim kababdır, özüm şikəstəm.
Camalın həsrəti yandırır, lakin
Sənə yol tapmıram, ey boyu bəstəm!

Mənə mey ver, fələk qəmlidir yaman,
Ey yarım, öldürdü məni bu hicran.
Mənim kimi şadlıq sevəni neçün
Badəsiz, canansız əzir bu dövran?

Cəmalına həsrət yaşamaq olmaz,
Eşqinlə heç rahat yaşamaq olmaz.
Sən məni anlayıb, sakit yaşarsan,
Sənsiz mənə, əlbət, yaşamaq olmaz!

Nə üçün sən məni atıb getdin, yar,
Hicrində eylədin min dərdə düçar.
Gəl məni şad eylə vüsalınla sən,
Səndən qeyri mənə yanan kimim var?

Sən yada düşəndə ürəyim yanır,
Qanlı göz yaşıyla üzüm islanır.
Ətrin məst etdikcə hər yandan məni
Səbrimin köynəyi hey parçalanır.

Olum, sabah yeli, mən sənə qurban,
Mələk balasına xəbər ver, aman!
Söylə ki, intizar içində, yazıq
Məhsəti yol üstə gördüm verir can.

Səndən ayrılmama tədbir tökdülər,
Hicrində belimi iki bükdülər.
Hədər olmazmı bu çalışdıqları,
Sabah biz səninlə qovuşsaq əgər?

İnanma ki, sənsiz olar qərarım,
Kəsir taqətimi bu intizarım.
Əlacım qalmamış səbirdən qeyri,
Gəl, güldür aşiqi, gülüzlü yarım!

Könlüm ayrı düşdü o nurlu aydan,
Bəzənmişdir vüsal ümidiylə can,
Onsuz yaralıdır ürəyim mənim,
Görünür, bu hökmü vermiş yaradan.

Hicrində gündüzüm gecə oldu, yar!
Zamanın əlindən könlüm qan ağlar
Göndər xəyalını bizə bir gecə,
Görsün necə üzür məni intizar.

Necə gəzdim səni, andım, soruşma,
Hicrini qəmxanə sandım, soruşma!
Nə qədər vəslinə yetən əlimlə
Öz başıma vurdum, yandım, soruşma!

Ömrüm fərağında qəmdir, kədərdir,
Şadlıq ürəyimdə zərrə qədərdir.
Hicrində günləri sayıram, gözəl,
Sənsiz keçən ömrüm puçdur, hədərdir.

Bu gecə küsüşdük, yar, səninlə biz,
Acıqlandın getdin, qaldım kimsəsiz.
Sənsiz gözlərimə yuxu da getmir,
Qiyamətdir, sanki, bu bəd gecəmiz!

Gecələr ürəyim od tutub yanar,
Ahü-fəğanımdan cahan odlanar.
Könlümdən xəbərin yoxdur, qorxursan,
Dilinə gətirsən, yanar dilin, yar!

Ürək xeyir görməz hicrində hərgiz,
Qiyaməti görsün gözlərim sənsiz.
Sənə böhtan deyən mənim adımdan,
Görüm bu dünyada qoymasın bir iz!

Yol üstə düşüb o qalmışdı xumar,
Qaldırdım əlindən, oldum havadar.
Yenə də xəbərim yoxdur, bilmirəm.
O harda qalmışdır, hardadır o yar?

Dözülməz bir acı zəhərdir fəraq,
O, şövqi, həvəsi yandırır ancaq.
Ölüm can qurtarır, böyük cəfadır –
Dünyada əzizdən, yardan ayrılmaq.

Firqət yuxusundan ayılıb səhər,
Bülbül ayrılıqdan hey nalə çəkər,
Deyər: "İnsaf elə, amandır, fəraq,
Yanır atəşinlə xəstə ürəklər!"

Min bir hiylə qurub, ayırdı fələk,
Məni göz yaşıyla dost etdi ürək.
Bilmədin qədrini heç vüsalımın,
Ayrılıq zülmünü mən çəkirəm tək!

O günəş üzünə and olsun, nigar,
And olsun ətirli saçlarına, yar!
Pərişan qəlbimin çəmənzarını
Hər gecə gözümün yaşı sulayar.

Qəlbim aşiqlərin sərdəftəridir,
Verilən əzaba çox müştəridir.
Sərt bir daş kimidir ürəyin sənin,
Dözdüm o bərkliyə çoxdan bəridir.

İstədim əcəmdən namə göndərəm,
Qəlbim qan ağladı, boğdu məni qəm.
Qəlbimin qaniylə yazdım məktubu,
Həm məktub ağladı, həm mən, həm qələm.

Gözəl, bu naməni alanda ələ,
Gör ki, yazılmışdır o, göz qaniylə.
Əgər belə deyil, alma, at, get sən,
Əgər belədirsə, oxu, lütf elə!

Ey gözəl, bu dərdli məktubum ki, var,
Oxu onu gündə yüz kərə təkrar,
Yoldan götürdüyün yorğun qəlbimi,
Lütf elə, yenə də yerinə qaytar.

İsladır məktubu gözümün nəmi,
Qan rəngə boyayır hər bir rəqəmi.
Qələm də mənimtək qəmini çəkir,
Başıyla ağlayır yazdıqca qəmi.

Min il sənə məktub yazsam, a dilbər,
Eşqin hekayəti bitərmi məgər?
Sığmaz bu hekayət kağız-qələmə,
Ancaq könlüm sənə bunu nəql edər.

Sənə göndərdiyim məktubu, canan,
Qanlı göz yaşımla yazmışam, inan!
Bu qədər dərdimin hekayətini
Bilmirəm, heç nə cür eyləyim bəyan?

Bazara getmişdim bir cümə günü,
Gördüm, kəklik alıb sarın üstünü.
Tez-tez deyir ona: "Cəfa verənin
Bir gün belə qalxar göylərə ünü".

Məni yerə yıxıb o qəssab kəsdi,
Dedi: "Güman etmə, bu, son nəfəsdi".
Düşüb ayağıma üzr istədi o,
Demə, ayağımdan soymaqmış qəsdi.

Sən qəssabsan, mənsə qurbanınam, bax,
Dözərəm çatsa da sümüyə bıçaq.
Adətdir, satırsan kəsdiyini sən,
Məni öldürsən də, gəl, satma ancaq!

Çörəkçi yanında şagird olmuşam,
Müəzzindən qabaq yandıraram şam.
Oddan, sudan, undan qızıl çıxarıb,
Xərabatda qızıl ələrəm axşam.

Mənə töhfəsini çörəkçi dilbər
Cəhalətlə deyil, naz ilə verər.
Qəmiylə xəmirə döndərdi məni,
Qorxuram ki, oda verə bu səhər...

Yun əyirən oğlan mənim canımdır,
Onun zənəxdanı bir zindanımdır.
Onun dodağından busə ver, Allah,
Çünki o dodaqlar can dərmanımdır!

Papaqçı sevgilim şövq ilə bayaq
Tikirdi əlində atlazdan papaq.
Hər papağa yüz-yüz afərin dedim,
Dördünə biri də bəs idi, ancaq...

Bənzər, dərzi oğlu, üzün qəmərə,
Sənə yüz Məhsəti dönər çakərə.
Əlindəki sap tək yolum düşə kaş
Şəkər dodağına gündə yüz kərə!

Ləl mədənidir, ey sap, məskənin,
Küləyin atıyla yarışır tənin.
İynəsində yarın nə azdır ömrün,
İçdiyin ki, həyat suyudur sənin.

Torpaq ələyənin mən aşiqiyəm,
Dilim gəlmir açıb sirrimi deyəm.
O, torpaq ələyib qızıl axtarır.
Mən əlimdə qızıl onu gəzirəm.

O sərraf oğlunun aşiqiyəm mən,
Eyn, şin və qafa vurğunam qəlbən.
İnsanam, axır sin, nun, kaf deyiləm,
Nə istər o süzgün baxışlı məndən?

Mumkünsə, hamamçı camaat üçün
Hamam qızdırmasın, söyləyin bu gün,
Mən səhər suyunu göz yaşlarımdan,
Odunu qəlbimdən elərəm bütün.

Ey şahım, dilərəm yaşa min illər,
Sayəndə bəxtiyar gün görsün ellər!
Hər il min ay olsun, hər ay da min gün,
Hər saat min günə olsun bərabər!

Şahlar kef günündə qaldırar badə,
Xoşdur çəng səsləri gəlsə fəryadə,
Şadlıq sevər əlim, göndə saxlama,
Zərə tut belə bir əli dünyadə.

Fələyə vurardı köhlənin dırnaq,
Fələk ayrı saldı səndən onu, bax!
Gördüm ki, başını kəsdilər, şükür,
Quyruğuna dəyən olmadı ancaq.

Ey şahım, şahlardan üstün bilərək
Bəxt atını sənə bəxş etdi fələk.
Qızıl nallı atın batmasın deyə,
Yerlərə gümüşdən saldı bir örpək.

Səni mədh etdiyim, ey şahım, yetər,
Bir qadın duası bəsdir bu qədər.
Mən öküz deyiləm, buynuz nə lazım?
Olsam da, bəs deyil ikisi məgər?

Üzünün çevrəsi, heyf, qaraldı,
Qarğa dimdiyinə bir lalə aldı.
Gülün ətrafını bürüdü tikan,
Qırmızı dodağın soldu, saraldı.

Xoşbəxtdir rüxünə rüx qoysa hər kəs,
Rüxün eyləyəni şah edə bilməz.
Mən oyuna baxım, yoxsa rüxünə?
Bu halla neyləyim, mat qalmayım bəs?

Şahın qoşununu filin dağıdar,
Vəzirin min qeysər, min xaqan yıxar.
Mən sənin rüxünə qurban olum ki,
Şahları o, atdan düşürüb salar.

Zülümdür, riyadır işlərin tamam,
Bizə cövrü cəfa verərsən müdam.
Səni mat eyləsəm, incimə, oğlan,
Bununçün eşqinlə mən oynayıram.

Heç pozan olmadı qəza-qədəri,
Doğradı ümidi eşqin xəncəri,
Eşqin badəsini içdim, can verdim,
Heyhat, tapılmadı eşqin gövhəri!

Deyirlər püstənin ağzı olur dar;
Sənin qabağında olar püstə xar.
Ağzına oxşamaq istəsə püstə,
Demək, ədəbsizdir, içini çıxar.

Yolda darğa mənə rast gəldi dünən,
Əlində tutduğu çubuqla bərkdən
Döyürdü qəzəblə o bir qadını,
Tamaşa edirdi hər yoldan ötən.

Tünd məzacın məni qul edib sənə,
Üzünə, zülfünə həsrətəm yenə.
Nizə oynatdımsa türklər kimi, bax,
Bir hindli qulunam, geri dönsənə!

Bir gün Miyanəni elədik vətən,
Ağcaqanad yedi bizi sübhətən.
Dedik: “Kim dəf edər bizdən bu dərdi?”
Qalxıb səhər yeli söylədi ki: “Mən!”

Yudun xətaləri, sən ey lütfkar,
Qulluq sırğan bütün qulaqlarda var.
Günahın yükünü götür, ey Allah,
Dar gündə kimsəni sən eyləmə xar!

## TAPMACA

O necə oğrudur evə girsə, tez
Ev deşikdən qaçar, davam gətirməz,
Ev axır, oğruya ev əhli lazım,
Ev getdi, ev əhli çırpınır əbəs?

## LÜĞƏT

*Ayin* – qayda, qanun
*Bədahətən* – birdən-birə, tez
*Bədgöhər* – nacins, yaramaz
*Çah* – quyu
*Çəng* – qədim çalğı aləti
*Duzaq* – tələ
*Əcəm* – ərəb olmayan (azərbaycanlı, iranlı...)
*Feyz* – pay, kam
*Fəraq* – ayrılıq, hicran
*Firqət* – ayrılıq, hicran
*Gövhər* – qiymətli daş; burada: zat, xislət, nəcabət
*Xudpəsənd* – özünü öyən, özünü bəyənən
*İşrət* – şadlıq, kef
*Lətafət* – zəriflik, incəlik, təzə
*Mah* – ay
*Mayeyi* – iman - imanın əsası
*Məbud* – pərəstiş edilən şey
*Müdam* – həmişə
*Müəzzin* – azançı, azan verən
*Rəmz* – işarə
*Rux* – şahmat oyununda top fiquru
*Rüx* – üz

*Sim* – gümüş
*Şeyda* – aşiq, məftun
*Təng* – dar, balaca
*Ülfət* – dostluq, mehribanlıq
*Ün* – nalə, inilti
*Üzar* – üz, yanaq
*Üzlət* – guşəyə çəkilmək
*Zənəxdan* – çənə
*Zər* – qızıl
*Ziba* – gözəl

# KİTABIN İÇİNDƏKİLƏR

Rəvayətlər dumanı arxasından boylanan sənətkar . . . 4

**I bölmə** (*Tərcümə edəni X.Yusifli*) . . . . . . . . . . . . . . . . 41

**II bölmə** (*Tərcümə edəni N.Rəfibəyli*) . . . . . . . . . . . . . . 95

Tapmaca . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 139

Lüğət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 140

**Məhsəti Gəncəvi**

RÜBAİLƏR

"Lider nəşriyyat"

BAKI-2004

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Alianna Duxanina*

Korrektor: *Sadiq Hüseynov*

Yığılmağa verilmişdir 17.09.2004.
Çapa imzalanmışdır 11.11.2004.
Formatı 60x90 $^{1}/_{32}$. Fiziki çap vərəqi 4,5.
Ofset çap üsulu. Tirajı 25000. Sifariş 164.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.